## PREZİDENT İLHAM ƏLİYEV ÇEXİYANIN SƏNAYE VƏ TİCARƏT NAZİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Çex Respublikasının sənaye və ticarət naziri xanım Marta Novakovanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, Çex Respublikasının Prezidenti Miloş Zemanın Azərbaycana səfərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev həmin səfərdən ötən dövr ərzində ikitərəfli münasibətlərimizin...



Bax səh. 2

## PREZİDENT İLHAM ƏLİYEV NATO PARLAMENT ASSAMBLEYASI SƏDRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL EDİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də NATO Parlament Assambleyasının sədri Paolo Allinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə NATO arasında əməkdaşlığın uğurla inkişaf etdiyini bildirərək NATO Parlament Assambleyasının iqtisadiyyat və təhlükəsizlik komitəsinin Bakıda keçirilən iclasının bu əməkdaşlığın...



Bax səh. 2




Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 13 sentyabr 2018-ci il, cümə axşamı / № 172 (5299). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik


# Prezident İlham Əliyev ATƏT-in baş katibi Tomas Qremingeri qəbul edib





## Prezidentin iş günü

Prezident İlham Əliyev Oğuz rayonunun Bucaq-Muxas-Baş Daşağıl avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev 2018/2019-cu tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb.

## Heydər Əliyev Fondu aztəminatlı ailələrin birinci sinif şagirdlərinə məktəb ləvazimatları hədiyyə edib

Heydər Əliyev Fondunun təşəbbüsü ilə aztəminatlı ailələrin 2018-2019-cu tədris ilində birinci sinfə gedən övladlarına məktəb ləvazimatlarından ibarət hədiyyələr verilib. AZƏRTAC xəbər verir ki, hədiyyələr Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəstəyi ilə ölkə üzrə ünvanlı sosial yardım alan ailələrin 13 mindən çox birinci sinif şagirdlərinə paylanıb. Heydər Əliyev Fondunun sifarişi ilə aztəminatlı ailələr üçün hazırlanan hədiyyə dəsti çanta və gündəlik məktəb ləvazimatlarından ibarətdir. Qeyd edək ki, Fond aztəminatlı ailələrin birinci sinif şagirdlərinə "Təhsilə dəstək" layihəsi çərçivəsində hər il çanta və müxtəlif məktəb ləvazimatları hədiyyə edir. Fəaliyyətində təhsil sahəsinə xüsusi önəm verən...

Bax səh. 3



## MİLLİ AVİASİYA AKADEMİYASINDA YENİDƏNQURMADAN SONRA "AERONAVİQASİYA" KAFEDRASI FƏALİYYƏTƏ BAŞLAYIB

Milli Aviasiya Akademiyasında tədris ili ərəfəsində tam yenidənqurmadan sonra "Aeronaviqasiya" kafedrasının korpusu fəaliyyətə başlayıb. "Azərbaycan Hava Yolları" (AZAL) QSC-nin mətbuat xidmətindən...

Bax səh. 4

## CƏLAL SÜLEYMANOV: ƏN BÖYÜK ARZUM OLİMPİYA ÇEMPİONU OLMAQDIR

III Dünya Köçəri Oyunlarında milli güləş növü üzrə yarışda qızıl medal qazanan təmsilçimiz Cəlal Süleymanov redaksiyamızın qonağı olub

Müstəqillik yolu ilə inamla irəliləyən Azərbaycanın qısa müddətdə böyük uğur qazandığı sahələrdən biri də idmandır. Tam qətiyyətlə demək mümkündür ki, artıq idman Azərbaycanda kütləvi hal alıb və ölkəmizdə getdikcə daha çox sayda gənc bu sahəyə üz tutaraq müxtəlif idman növləri ilə məşğul olmağı özlərinin həyat tərzinə çevirirlər. İdmançılarımızın mötəbər yarışlarda ölkəmizi uğurla təmsil edərək böyük nailiyyətlər qazanmaları və dünyanın möhtəşəm arenalarında himnimizi səsləndirmələri, Vətənə medallarla dönmələri Azərbaycanın beynəlxalq miqyasda müsbət imicinin formalaşmasına, nüfuzunun artmasına, daha geniş miqyasda tanınmasına müsbət təsir göstərir. Bir neçə gün əvvəl Qırğızıstanda başa çatan III Dünya Köçəri Oyunlarında (DKO) da atletlərimizin...

Bax səh. 7



## TOMAS QREMİNGER: AZƏRBAYCAN İLƏ ATƏT ARASINDAKI MÜNASİBƏTLƏRİN DAHA DA İNKİŞAFI ÜÇÜN İMKANLAR MÖVCUDDUR

Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov sentyabrın 12-də ATƏT-in baş katibi Tomas Qreminger ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Oqtay Əsədov ATƏT-in baş katibinin...

Bax səh. 4

## Ermənistan rəhbərliyinin populist və ziddiyyətli bəyanatları Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesini pozmağa hesablanıb

Cənubi Qafqazın lider dövləti olan, yüksək beynəlxalq nüfuza malik Azərbaycanın xarici siyasət kursunun strateji prioritetlərindən birini...




Bax səh. 3

## Azərbaycan ilə ATƏT arasında əməkdaşlıq proqramları nəzərdən keçirilib

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov sentyabrın 12-də ATƏT-in baş katibi Tomas Qreminger ilə görüşüb. XİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Elmar Məmmədyarov ATƏT-in baş katibi Tomas Qremingeri və onu müşayiət edən nümayəndə heyətini salamlayıb, Azərbaycanın regional təşkilat olaraq ATƏT ilə əməkdaşlığa mühüm əhəmiyyət verdiyini diqqətə çatdırıb. ATƏT çərçivəsində təhlükəsizliyin bölünməzliyinin fundamental prinsip olduğunu qeyd edən Elmar Məmmədyarov bütün üzv dövlətlərin Helsinki Yekun Aktı üzrə öhdəliklərinə sadiq olmasının vacibliyini bildirib. Bu xüsusda, nazir E.Məmmədyarov...

Bax səh. 4

### Milli Məclisin Aqrar siyasət komitəsinin payız sessiyasında ilk iclası keçirilib

Sentyabrın 12-də Milli Məclisin Aqrar siyasət komitəsinin 2018-ci ilin payız sessiyasında ilk iclası keçirilib. AZƏRTAC xəbər verir ki...



Bax səh. 4

### Suraxanıda "Dini mərasimlər: ənənəvilik və müasirlik" mövzusunda seminar-müşavirə keçirilib

Sentyabrın 12-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Suraxanı Rayon İcra Hakimiyyətinin (RİH) birgə...



Bax səh. 5

### Gömrük orqanlarında aparılan islahatlar və nəticələri açıqlanıb

Sentyabrın 12-də Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində Dövlət Gömrük Komitəsi...



Bax səh. 6

### Azərbaycan Respublikası Prokurorluğunun 100 illik yubileyinə həsr olunmuş elmi-praktiki konfrans keçirilib

Sentyabrın 12-də Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Azərbaycan Respublikası Prokurorluğunun 100 illik yubileyinə...



Bax səh. 5

# Prezident İlham Əliyev ATƏT-in baş katibi Tomas Qremingeri qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də ATƏT-in baş katibi Tomas Qremingeri qəbul edib.

AZƏRTAC xəbər verir ki, Tomas Qremingerin səfəri zamanı müzakirə ediləsi məsələlərin gündəliyinin geniş olduğunu deyən dövlətimizin başçısı bildirib ki, əsas məsələlərdən biri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlıdır. Bu baxımdan, Prezident İlham Əliyev qeyd edib ki, Ermənistanın yeni baş nazirinin fəaliyyətə başladığı ilk günlərdən münaqişənin həlli ilə əlaqədar verdiyi ziddiyyətli bəyanatlar ən azı təəccüb doğurur. Xüsusilə "Azərbaycan qondarma "Dağlıq Qarabağ Respublikası" ilə danışıqlar aparmalıdır" tezisi qəbuledilməzdir. Bu, onu göstərir ki, Ermənistan rəhbərliyi danışıqları pozmaq istəyir. Azərbaycanın işğal edilmiş rayonlarının guya qondarma "Dağlıq Qarabağ Respublikası"nın tərkib hissəsi olması kimi bəyanatları da Azərbaycan qətiyyətlə rədd edir və Azərbaycan ATƏT-i bu təhlükəli bəyanatlara reaksiya verməyə çağırır. Ümumiyyətlə, Azərbaycan tərəfində belə bir qənaət yaranıb ki, Paşinyan hər vasitə ilə danışıqlar prosesini pozmağa çalışır. Belə olan təqdirdə bunun bütün məsuliyyəti Ermənistan tərəfinin və şəxsən Paşinyanın üzərinə düşəcək.

Prezident İlham Əliyev Ermənistanda demokratiya adı altında insan haqlarının kütləvi şəkildə pozulması hallarına, Ermənistanın baş naziri tərəfindən siyasi rəqiblərinin həbsi haqqında verdiyi göstərişlərə, Ermənistanda yeni diktatura rejiminin yaranmasına ATƏT-in biganə qalmaması ilə bağlı müraciət edib.

Söhbət zamanı regional təhlükəsizlik, demokratik inkişaf, nəqliyyat, iqtisadi əməkdaşlıq ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Prezident İlham Əliyev Çexiyanın sənaye və ticarət nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Çex Respublikasının sənaye və ticarət naziri xanım Marta Novakovanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Çex Respublikasının Prezidenti Miloş Zemanın Azərbaycana səfərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev həmin səfərdən ötən dövr ərzində ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini deyib. Ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə inkişafının razılıq doğurduğunu qeyd edən dövlətimizin başçısı ticarət dövriyyəsinin artdığını vurğulayıb, iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi üçün əlavə imkanların müəyyənləşdirilməsinin zəruriliyini bildirib. İqtisadi tərəfdaşlığın geniş gündəliyə malik olduğunu, bir sıra Çex şirkətlərinin Azərbaycanda uğurla fəaliyyət göstərdiklərini vurğulayan Prezident İlham Əliyev ölkələrimiz arasında ticarət, investisiya sahələrində əməkdaşlığın genişləndirilməsinin önəmini qeyd edib.

Başçılıq etdiyi nümayəndə heyətinə çexiyalı iş adamlarının daxil olduğunu deyən nazir xanım Marta Novakova bu gün Bakıda keçiriləcək Azərbaycan-Çexiya biznes forumunun əhəmiyyətini qeyd edib və bu tədbirin iki ölkə arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Söhbət zamanı sənaye, infrastruktur, avtomobil sənayesi, kənd təsərrüfatı, turizm sahələrində əməkdaşlıqla bağlı məsələlər müzakirə edilib.

# Prezident İlham Əliyev NATO Parlament Assambleyası sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də NATO Parlament Assambleyasının sədri Paolo Allinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə NATO arasında əməkdaşlığın uğurla inkişaf etdiyini bildirərək NATO Parlament Assambleyasının iqtisadiyyat və təhlükəsizlik komitəsinin Bakıda keçirilən iclasının bu əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətini vurğulayıb. Prezident İlham Əliyev Özünün ötən il NATO-nun mənzil-qərargahına səfərini məmnunluqla xatırlayaraq NATO baş katibi ilə və eləcə də Şimali Atlantika Şurasında keçirilən görüşlərdə Azərbaycanın NATO-Azərbaycan əməkdaşlığı və regiondakı rolu barədə çox müsbət fikirlərin söylənildiyini qeyd edib. Azərbaycan-NATO əməkdaşlığının bir çox illərdir həyata keçirildiyini və müxtəlif sahələri əhatə etdiyini deyən Prezident İlham Əliyev ölkəmizin Qətiyyətli Dəstək Missiyasında iştirakının və orada hərbçilərimizin sayının artırılmasının NATO tərəfindən yüksək qiymətləndirildiyini vurğulayıb. Dövlətimizin başçısı NATO Parlament Assambleyasının sədri Paolo Allinin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin Azərbaycan-NATO və eləcə də Azərbaycan Milli Məclisi ilə NATO Parlament Assambleyası arasında əlaqələrin inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib.

NATO Parlament Assambleyasının sədri Paolo Alli Prezident İlham Əliyev ilə görüşündən məmnunluq hissi keçirdiyini qeyd edərək Azərbaycan Prezidenti ilə regional təhlükəsizlik və əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılmasında maraqlı olduqlarını bildirib.

Paolo Alli, eyni zamanda, Azərbaycan-NATO əlaqələrinin inkişafında Azərbaycan Milli Məclisi ilə NATO Parlament Assambleyasının rolunu vurğulayıb.

# Prezident İlham Əliyev 227 saylı tam orta məktəbdə yaradılan şəraitlə tanış olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Bakının Nizami rayonunun Keşlə qəsəbəsindəki 227 saylı tam orta məktəbdə əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub.



AZƏRTAC xəbər verir ki, məktəbin direktoru Sevinc Hüseynova görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verib.

Bildirilib ki, 227 nömrəli tam orta məktəbin binası 1937-ci ildə tikilib. Binanın əsas korpusu İkinci Dünya müharibəsi illərində hospital kimi fəaliyyət göstərib. Sonra bina məktəb kimi fəaliyyətini davam etdirib. 2005-ci və 2007-ci illərdə məktəb üçün əlavə iki korpus tikilib və istifadəyə verilib. Yenidənqurma işləri yüksək səviyyədə həyata keçirilib. Hazırda məktəbdə ikinövbəli sistemdə 1176 şagird təhsil alır. Şagirdlərin təlim-tərbiyəsi ilə 82 müəllim məşğul olur. Məktəbdə 38 sinif otağı, informatika kabineti, laboratoriya, idman və akt zalları, hərbi otaq və yeməkxana var. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları zəruri dərs vəsaitləri ilə təchiz edilib. Məktəbdə internet, mebel-inventar və digər zəruri avadanlıqlar müasir tələblər səviyyəsindədir. Təhsil müəssisəsinin həyətində abadlıq işləri aparılıb, yaşıllıqlar salınıb, müasir işıqlandırma sistemi quraşdırılıb.

Qeyd olunub ki, məktəbin şagird və məzunları müxtəlif beynəlxalq bilik və idman yarışlarında, olimpiadalarda mühüm uğurlara imza atıblar. Bu təhsil ocağının məzunları ali məktəbə qəbul imtahanlarında yüksək nəticələri ilə seçilirlər. Son illərin statistikasına görə, məktəbi bitirən məzunların 60-70 faizi tələbə adını qazanıb.

Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı qəbul edilən xüsusi Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq bütün sosial sahələrdə olduğu kimi, təhsil müəssisələrinin əsaslı şəkildə yenidən qurulması, yeni məktəb binalarının, uşaq bağçalarının inşası prosesi də məqsədyönlü şəkildə uğurla həyata keçirilir. Paytaxt və ətraf qəsəbələrlə yanaşı, respublikanın hər yerində orta məktəb binaları yüksək standartlara uyğun şəkildə yenidən qurulur, lazımi avadanlıqla təchiz edilir, təhsil müəssisələrinin ərazilərində abadlıq işləri həyata keçirilir. Təhsil sahəsində görülən bütün bu işlər Azərbaycanda insan kapitalının daha da inkişaf etdirilməsi məqsədinə xidmət edir.

# Bakıdakı 8 nömrəli tam orta məktəbdə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanışlıq



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Bakının Nəsimi rayonunda general-leytenant Kərim Kərimov adına 8 nömrəli tam orta məktəbdə yenidənqurmadan və əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, məktəbin direktoru Aytən Baxşəliyeva təhsil ocağında görülən işlər barədə dövlətimizin başçısına məlumat verib.

Diqqətə çatdırılıb ki, bu məktəbin binası 1900-cü ildə inşa edilib. Burada əvvəllər hərbi xəstəxana, sonralar isə Bakı Hərbi Məktəbi yerləşib. 1945-ci ildən binada 8 saylı tam orta məktəb fəaliyyət göstərir. Sovet İttifaqı Qəhrəmanı, general-leytenant Kərim Kərimovun adını daşıyan məktəbdə təmir işlərinə Prezident İlham Əliyevin təsdiq etdiyi layihəyə uyğun olaraq bu ilin mayından başlanılıb, yenidənqurma və təchizat işləri qısa vaxt ərzində və yüksək səviyyədə həyata keçirilib.

Dövlətimizin başçısı məktəbdə yaradılan şəraitlə tanış olub.

Azərbaycan Prezidentinin Sərəncamı ilə 8 nömrəli məktəb 2010-2011-ci tədris ilində keçirilən "Ən yaxşı ümumtəhsil müəssisəsi" müsabiqəsinin qalibi olub.



Bildirilib ki, məktəbin üçmərtəbəli binası əsas və yardımçı korpuslardan ibarətdir. Burada 780 şagird təhsil alır, 2016-2017-ci tədris ilindən məktəbəhazırlıq qrupları fəaliyyət göstərir. Məktəbdə tədris Azərbaycan və rus bölmələri üzrə aparılır. Yenidənqurma işləri zamanı bütün sinif otaqları, emalatxana, hərbi otaq, laboratoriyalar, yeməkxana, idman və akt zalları, eləcə də digər xidmət otaqları əsaslı şəkildə təmir edilib, əlavə 5 sinif otağı artırılıb. Təhsil müəssisəsində 70 nəfəri pedaqoji işçi olmaqla, ümumilikdə, 83 nəfər əməkdaş çalışır. Burada pedaqoji kollektivin fəaliyyət göstərməsi və şagirdlərin müasir tələblərə cavab verəcək səviyyədə təhsil almaları üçün hər cür şərait yaradılıb. Məktəb yüksək tələblərə cavab verən avadanlıq və müasir dərs ləvazimatları ilə təchiz edilib.

Zəngin təbii sərvətləri olan Azərbaycanda bu sərvətlərdən səmərəli istifadə etməklə insan kapitalının daha da inkişaf etdirilməsi başlıca amilə çevrilib. Ölkəmizdə təhsilin inkişafına göstərilən diqqət və qayğı təsdiqləyir ki, bu mühüm amil dövlət siyasətinin əsas prinsiplərini təşkil edir. Son illərdə müasir məktəb binaları tikilir, təhsil müəssisələri üçün yeni korpuslar inşa olunur. Bu proses ölkəmizin bütün bölgələrini əhatə edir. Məktəblərin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də mühüm işlər görülüb. Heydər Əliyev Fondu dövlət səviyyəsində həyata keçirilən bu fəaliyyət proqramına güclü dəstək verir. Yüksək şəraiti və müasir tədris-təlim avadanlıqları ilə diqqət çəkən bu təhsil ocaqlarından biri də 8 saylı tam orta məktəbdir.

# Bakıdakı 2 nömrəli texniki-humanitar liseyin binası əsaslı təmir edilib

## *Prezident İlham Əliyev liseydə yaradılan şəraitlə tanış olub*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 12-də Bakının Səbail rayonunda Həbib bəy Mahmudbəyov adına 2 nömrəli texniki-humanitar liseydə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, təhsil ocağının direktoru Bəkir Mustafayev burada aparılan işlər barədə dövlətimizin başçısına məlumat verib.

Qeyd olunub ki, liseyin yerləşdiyi binanın yaşı 100 ildən çoxdur. Təhsil ocağında əsaslı təmir işləri bu ilin mayında Prezident İlham Əliyevin tapşırığına əsasən aparılıb. Lisey binasında təmir işləri qısa müddətə və yüksək keyfiyyətlə görülüb. Ümumi sahəsi 2500 kvadratmetr olan üçmərtəbəli binada 31 sinif otağı və müxtəlif fənn kabinetləri var. Burada şagirdlər zəngin ədəbiyyat fondu olan kitabxanadan istifadə edəcəklər. Liseyin yeməkxanası tam yenilənib. Təhsil müəssisəsinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində mühüm işlər görülüb. Lisey müasir avadanlıq və dərs ləvazimatları ilə təchiz edilib. Şagirdlərin nəzəri biliklərini laboratoriyalarda tətbiq etmələri üçün yeni avadanlıqlar quraşdırılıb. Məktəbin kimya, fizika, biologiya, informatika, ədəbiyyat, riyaziyyat, tarix kabinetləri də müasir avadanlıqla təchiz edilib. Liseydə yeni ekoloji kabinet də yaradılıb. Yeniyetmələrin hərbi biliklərinin artırılması məqsədilə Daxili İşlər Nazirliyinin Daxili Qoşunları tərəfindən xüsusi olaraq liseydə çağırışaqədərki hərbi hazırlıq kabineti yaradılıb. Təhsil ocağında idman və akt zalları müasir səviyyədə təmir olunub. Bir sözlə, burada şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün hərtərəfli şərait yaradılıb. Hazırda liseydə 506 şagird Azərbaycan və rus bölmələrində təhsil alır.





Onu da deyək ki, Azərbaycanda ilk dünyəvi məktəb olan bu liseyin təməli 1887-ci ildə "Rus-müsəlman" məktəbi kimi görkəmli maarifçi Həbib bəy Mahmudbəyov tərəfindən qoyulub. Bu təhsil ocağı nəinki Azərbaycanda, ümumiyyətlə, Cənubi Qafqazda böyük şöhrət qazanıb. İlk vaxtlarda bu məktəbdə o dövrün tanınmış ziyalıları olan Süleyman Sani Axundov, Abdulla Şaiq və digər görkəmli maarifçilər dərs deyiblər.

Prezident İlham Əliyevin ölkəmizdə təhsilə olan diqqət və qayğısının bariz nəticəsidir ki, son illər ərzində respublikamızın hər yerində olduğu kimi, paytaxtın mərkəzi rayonu olan Səbail rayonunda da təhsil müəssisələrinin əsaslı təmiri və təchizatı diqqət mərkəzində saxlanılıb. Prezident İlham Əliyevin tapşırıq və sərəncamlarına əsasən rayonda bir yeni məktəb və uşaq bağçası inşa olunub, iki orta məktəb və bir musiqi məktəbinin binası sökülərək yenidən tikilib, 5 orta məktəb üçün əlavə tədris korpusları inşa edilib. Ümumilikdə, digər orta və məktəbəqədər təhsil müəssisələrində də əsaslı təmir işləri aparılıb.

Lisey binasında yaradılan şəraitlə tanış olan dövlətimizin başçısı kollektivə yeni tədris ilində uğurlar arzulayıb.

# Ermənistan rəhbərliyinin populist və ziddiyyətli bəyanatları Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesini pozmağa hesablanıb

***Prezident İlham Əliyev:** Ümumiyyətlə, Azərbaycan tərəfində belə bir qənaət yaranıb ki, Paşinyan hər vasitə ilə danışıqlar prosesini pozmağa çalışır. Belə olan təqdirdə bunun bütün məsuliyyəti Ermənistan tərəfinin və şəxsən Paşinyanın üzərinə düşəcək*

Cənubi Qafqazın lider dövləti olan, yüksək beynəlxalq nüfuza malik Azərbaycanın xarici siyasət kursunun strateji prioritetlərindən birini Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həlli təşkil edir. Başqa sözlə, beynəlxalq hüquqa və ədalətə söykənərək Dağlıq Qarabağ münaqişəsinin ərazi bütövlüyü prinsipi əsasında həllinə nail olmaq Azərbaycan üçün başlıca prinsipial və prioritet məsələlərdən biridir. Azərbaycan bu istiqamətdə qətiyyətli mövqeyini, ölkəmizin ərazi bütövlüyünün bərpa olunması üçün çoxşaxəli fəaliyyətini davam etdirir. Azərbaycan dövləti bütün diplomatik imkanlardan və beynəlxalq tribunalardan istifadə edərək Dağlıq Qarabağ münaqişəsinin həllinin zəruriliyini daim diqqətə çatdırır. Ümumiyyətlə, Ermənistanın hərbi təcavüzü nəticəsində meydana çıxan, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ və yeddi ətraf rayonun işğal edilməsi, bir milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkün həyatı yaşamağa məhkum olması ilə nəticələnən bu münaqişənin həlli strateji zərurətdir. Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Azərbaycanın mövqeyi qəti və birmənalıdır. Münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında öz həllini tapmalıdır. Çünki Dağlıq Qarabağ həm tarixi, həm də məhz hüquqi baxımdan Azərbaycanın ayrılmaz tərkib hissəsidir.




### PAŞİNYANIN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN HƏLLİ İLƏ BAĞLI ZİDDİYYƏTLİ ÇIXIŞLARI DANIŞIQLARIN RUHUNA VƏ BEYNƏLXALQ QANUNVERİCİLİYİN TƏLƏBLƏRİNƏ ZİDDİR

Qeyd etdiyimiz kimi, Azərbaycan münaqişənin həlli ilə bağlı bütün görüşlərdə və danışıqlarda siyasi iradə nümayiş etdirərək konfliktin nizamlanması yolunda konstruktiv mövqe sərgiləyib. Ölkəmiz Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında ədalətli həllini tələb edir. Ermənistan isə qeyri-konstruktiv mövqe ilə danışıqlar prosesini pozmağa cəhd edir. Bu ölkənin yeni baş naziri fəaliyyətə başladığı ilk günlərdən Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ziddiyyətli bəyanatlar səsləndirir, bu məsələ ilə əlaqədar populist xarakterli çıxışlar edir ki, bütün bunlar bu günə kimi aparılmış danışıqların ruhuna, beynəlxalq qanunvericiliyin tələblərinə tamamilə ziddir.

Bunlarla yanaşı, Nikol Paşinyanın "Azərbaycan qondarma "Dağlıq Qarabağ Respublikası" ilə danışıqlar aparmalıdır" tezisi həm absurddur, həm də qəbuledilməzdir. Bəllidir ki, Azərbaycanın əraziləri Ermənistan tərəfindən işğal edilib və Dağlıq Qarabağdakı qondarma rejimin arxasında işğalçı Ermənistan durur. Yəni ortada işğal faktı var - Ermənistan işğalçı siyasətini davam etdirir, belə olan halda, Azərbaycan yalnız Ermənistanla danışıqlar apara bilər. Göründüyü kimi, Paşinyanın bu cür absurd və heç bir məntiqə sığmayan, reallıqlara əsaslanmayan iddiaları, sadəcə olaraq, danışıqlar prosesini pozmaq məqsədinə xidmət edir.

Digər tərəfdən, N.Paşinyanın Azərbaycanın işğal edilmiş rayonlarının guya qondarma "Dağlıq Qarabağ Respublikası"nın tərkib hissəsi olmasına dair absurd bəyanatları da Ermənistan rəhbərliyinin beynəlxalq qanunlara, dünya ictimaiyyətinə, özəlliklə də ATƏT-in Minsk qrupu həmsədrlərinə hörmətsizliyinin bariz nümunəsidir. Onun ziddiyyətli fikirləri, əslində, Ermənistan tərəfinin bu məsələ ilə bağlı siyasi manipulyasiyasını nümayiş etdirir. Lakin Ermənistanın rəhbərliyi anlamalıdır ki, danışıqlar prosesini pozmağa hesablanmış bu cür mövqe və yanaşma ilə münaqişənin beynəlxalq hüquq normalarına əsasən - ədalətli həllinə mane ola bilməzlər.

### PAŞİNYAN RUSİYA SƏFƏRİ ZAMANI ÜZLƏŞDİYİ UĞURSUZLUĞU KOMPENSASİYA ETMƏK ÜÇÜN ABSURD VƏ MƏSULİYYƏTSİZ BƏYANATLAR VERİR

Görünür, ard-arda diplomatik məğlubiyyətlərə düçar olan Ermənistanın baş naziri N.Paşinyan son Rusiya səfəri zamanı üzləşdiyi uğursuzluğu kompensasiya etmək üçün cəfəng və məsuliyyətsiz bəyanatlar verir, bununla da ölkə əhalisi arasında "nüfuzu"nu qorumağa çalışır. Amma həm də reallıq budur ki, populist vədlər verərək hakimiyyətə gələn Paşinyan mövcud reallıqları dərk etməyə başlayıb və düşdüyü mürəkkəb durumu necə həll edəcəyini bilmir. Buna görə də daxili auditoriyanı müxtəlif vədlər, eləcə də pafoslu ritorika ilə manipulyasiyaya məruz qoymağa çalışan Paşinyan "müvəqqəti xilas yolu"nu Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsi ilə bağlı ziddiyyətli bəyanatlar verməkdə görür. Paşinyan bu addımlarla həm də Azərbaycanın uğurlu xarici siyasətinin, xüsusilə Prezident İlham Əliyevin Soçi səfərində əldə olunmuş mühüm nəticələrin effektini azaltmağa çalışır.

Əlbəttə, ATƏT Ermənistan rəhbərliyinin bu cür təhlükəli, məsuliyyətsiz bəyanat və iddialarına konkret münasibət bildirməlidir. Eyni zamanda, işğalçı ölkənin rəhbərliyi bundan sonrakı dövrdə də danışıqlar prosesini pozmağa davam edəcəksə, bunun bütün məsuliyyəti Ermənistan tərəfinin və şəxsən Paşinyanın üzərinə düşəcək. Yeri gəlmişkən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 12-də ATƏT-in baş katibi Tomas Qremingeri qəbulu zamanı bu məsələlər diqqət mərkəzində olub. Prezident İlham Əliyev qeyd edib ki, Ermənistanın yeni baş nazirinin fəaliyyətə başladığı ilk günlərdən münaqişənin həlli ilə əlaqədar verdiyi ziddiyyətli bəyanatlar ən azı təəccüb doğurur. Xüsusilə "Azərbaycan qondarma "Dağlıq Qarabağ Respublikası" ilə danışıqlar aparmalıdır" tezisi qəbuledilməzdir. Bu, onu göstərir ki, Ermənistan rəhbərliyi danışıqları pozmaq istəyir. Azərbaycanın işğal edilmiş rayonlarının guya qondarma "Dağlıq Qarabağ Respublikası"nın tərkib hissəsi olması kimi bəyanatları da Azərbaycan qətiyyətlə rədd edir və Azərbaycan ATƏT-i bu təhlükəli bəyanatlara reaksiya verməyə çağırır. Ümumiyyətlə, Azərbaycan tərəfində belə bir qənaət yaranıb ki, Paşinyan hər vasitə ilə danışıqlar prosesini pozmağa çalışır. Belə olan təqdirdə bunun bütün məsuliyyəti Ermənistan tərəfinin və şəxsən Paşinyanın üzərinə düşəcək.

### PAŞİNYANIN QISAMÜDDƏTLİ RƏHBƏRLİYİ ERMƏNİSTANDA TƏNƏZZÜL VƏ XAOSUN DƏRİNLƏŞMƏSİNİ ŞƏRTLƏNDİRİB

Reallıq ortadadır və mənzərə kifayət qədər aydındır: populist vədlərlə - insan hüquq və azadlıqlarının, hüququn aliliyinin, demokratik dəyərlərin təmin olunacağı, iqtisadi inkişafa şərait yaradılacağı və digər bu kimi şüarlarla hakimiyyətə gələn Paşinyanın qısamüddətli rəhbərliyi dövründə işğalçı ölkədə vəziyyət daha da gərginləşib, diplomatik məğlubiyyətlərin sayı isə durmadan artır. Özündən əvvəlki hakimiyyət mənsublarına qarşı repressiyaların təşkili, demokratiya adı altında insan haqlarının kütləvi şəkildə pozulması hallarının davamlı olaraq artması, siyasi rəqiblərinin qeyri-qanuni yollarla neytrallaşdırılması, faktiki olaraq diktatura üsul-idarəsinin tətbiq edilməsi, iqtisadi tənəzzülün dərinləşməsi, işğalçı ölkədə sosial-iqtisadi vəziyyətin daha da pisləşməsi - Paşinyanın hakimiyyətdə olduğu qısa müddəti əyani şəkildə təsvir edən aşkar reallıqlardır.

Gerçəklik bundan ibarətdir ki, öz işğalçı siyasəti səbəbindən regiondakı bütün layihələrdən kənarda qalan Ermənistan indi ciddi siyasi, iqtisadi problemlərlə qarşı-qarşıyadır. İşğalçı ölkədə siyasi müstəvidə hökm sürən gərginlik, xarici siyasətin tamamilə iflasa uğraması iqtisadi problemləri daha da kəskinləşdirməklə yanaşı, bütün sahələrin faktiki iflasını şərtləndirib. Buna paralel olaraq ictimai-siyasi kataklizmlər daha da güclənməkdədir. Bütövlükdə, mövcud reallıqlar Ermənistanın yeni siyasi kataklizmlərə sürükləndiyini göstərir. Əlbəttə, bütün regional layihələrdən təcrid durumuna düşən, siyasi, sosial və iqtisadi problemlər məngənəsində olan, yeni siyasi kataklizmlərə sürüklənən və hakimiyyət böhranı ilə qarşı-qarşıya qalan Ermənistanın yeganə çıxış yolu işğalçı siyasətdən əl çəkməkdir. Başqa sözlə, Ermənistan Azərbaycanın işğal edilmiş ərazilərindən qoşunlarını dərhal çıxarmalıdır. Bu gün bütün regional layihələrdən təcrid olunan - bölgədə blokada vəziyyətində olan Ermənistanın bir sıra dairələri mövcud hakimiyyətin işğalçılıq siyasətindən imtina etməsini yeganə çıxış yolu kimi göstərirlər. Diqqətə çatdırılır ki, mövcud reallıqlar Ermənistanın işğalçılıq siyasətindən əl çəkməsinin zəruriliyini əks etdirir.

### ATƏT ERMƏNİSTANIN YENİ HAKİMİYYƏTİNİN ÖZBAŞINALIĞINA BİGANƏ YANAŞMAMALIDIR

Bütövlükdə, Ermənistanın yeni rəhbərliyinin danışıqlar prosesini pozmağa hesablanmış cəhdləri yolverilməzdir. Bu məqsədlə beynəlxalq hüquq normalarına zidd olan yanaşmalar və hərəkətlərə son qoyulmalıdır. Xüsusilə də, ATƏT bu kimi hallara biganə yanaşmamalıdır. Müvafiq təsir imkanlarından istifadə edilməklə Ermənistanın yeni hakimiyyətinin özbaşınalığına son qoyulmalıdır. Ümumiyyətlə, ATƏT-in Minsk qrupu münaqişənin həlli istiqamətində təxribatçı fəaliyyət göstərən Ermənistana təsir etmək üçün kifayət qədər resurslara malikdir. Eləcə də beynəlxalq hüquq normaları - BMT-nin qətnamələri, qəbul edilmiş digər qərar və qətnamələr, ATƏT-in Helsinki Yekun Aktı da imkan verir ki, işğalçı dövlətə qarşı xüsusi tədbirlər görülsün.

**Nurlan QƏLƏNDƏRLİ**

# NATO Parlament Assambleyasının nümayəndə heyəti Ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib



Azərbaycanda səfərdə olan NATO Parlament Assambleyasının sədri Paolo Allinin başçılıq etdiyi nümayəndə heyəti sentyabrın 12-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə gül dəstələri düzüb.

AZƏRTAC xəbər verir ki, sonra Şəhidlər xiyabanına gedən qonaqlar ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, məzarları üzərinə tər çiçəklər qoyublar.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən nümayəndə heyətinin üzvlərinə Şəhidlər xiyabanının tarixi və paytaxtda görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

# Heydər Əliyev Fondu aztəminatlı ailələrin birinci sinif şagirdlərinə məktəb ləvazimatları hədiyyə edib





Heydər Əliyev Fondunun təşəbbüsü ilə aztəminatlı ailələrin 2018-2019-cu tədris ilində birinci sinfə gedən övladlarına məktəb ləvazimatlarından ibarət hədiyyələr verilib.

AZƏRTAC xəbər verir ki, hədiyyələr Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəstəyi ilə ölkə üzrə ünvanlı sosial yardım alan ailələrin 13 mindən çox birinci sinif şagirdlərinə paylanıb.

Heydər Əliyev Fondunun sifarişi ilə aztəminatlı ailələr üçün hazırlanan hədiyyə dəsti çanta və gündəlik məktəb ləvazimatlarından ibarətdir.

Qeyd edək ki, Fond aztəminatlı ailələrin birinci sinif şagirdlərinə "Təhsilə dəstək" layihəsi çərçivəsində hər il çanta və müxtəlif məktəb ləvazimatları hədiyyə edir. Fəaliyyətində təhsil sahəsinə xüsusi önəm verən Heydər Əliyev Fondu bu layihə çərçivəsində aztəminatlı ailələrə sosial dəstək göstərməklə yanaşı, həm də təhsilin inkişafına öz töhfəsini vermiş olur.

# Milli Aviasiya Akademiyasında yenidənqurmadan sonra "Aeronaviqasiya" kafedrası fəaliyyətə başlayıb



Milli Aviasiya Akademiyasında tədris ili ərəfəsində tam yenidənqurmadan sonra "Aeronaviqasiya" kafedrasının korpusu fəaliyyətə başlayıb.

"Azərbaycan Hava Yolları" (AZAL) QSC-nin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, sentyabrın 12-də AZAL-ın prezidenti Cahangir Əsgərov, Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayev, professor-müəllim heyəti kafedrada yaradılmış şərait ilə tanış olub.

"Azərbaycan Hava Yolları" QSC-nin və onun struktur bölməsi olan "Azəraeronaviqasiya" Hava Hərəkəti İdarəsinin (AZANS) dəstəyi ilə kafedra müasir tələblərə uyğun tam müasirləşdirilib.

Kafedrada tədris prosesi üçün zəruri olan yeni interfeyslər və texnologiyalar tətbiq olunub. Kafedranın tədris proqramı beynəlxalq standartlara uyğunlaşdırılıb və ICAO Doc.10056 ("HHİ-nin dispetçerləri qismində təlim və qiymətləndirmə") rəhbər prinsiplərinin tələblərini, Avropa uçuşların təhlükəsizliyi standartları (EASA), həmçinin mülki aviasiya mütəxəssislərinin hazırlığı və təlimi təşkilatlarına (ATO) dair Avropa komissiyasının №2015/340 reqlamentinin beynəlxalq standartlarını əks etdirir.

Eyni zamanda, Almaniya "DFS-Academy" Aeronaviqasiya Akademiyasının "DFS e-learning" auditoriyası istismara verilib. "DFS-Academy" tərəfindən həyata keçirilən məsafədən daxil olmaqla tədris proqramı 12 fənnə əsaslanır. Tədris bilavasitə "DFS-Academy"nin məlumat bazası vasitəsilə onlayn rejimdə həyata keçirilir.

Milli Aviasiya Akademiyası və Almaniya Aeronaviqasiya Akademiyası arasında əldə olunan razılaşmaya əsasən, Bakıda DFS Almaniya Aeronaviqasiya İnstitutunun yaradılması planlaşdırılır. Bu, milli kadrların peşəkar hazırlıq səviyyəsini artıracaq və bu ixtisas üzrə xarici tələbə axını cəlb edəcək.

İnstitut Hava Hərəkəti İdarəsi qülləsinin real imitasiyası və 360 dərəcə tam görünüş sahəsi ilə peşəkar 3D trenajorla təchiz olunacaq. Milli Aviasiya Akademiyasının müəllimləri bu tədris metodu çərçivəsində xüsusi hazırlıq keçəcək.

Qeyd edək ki, "Aeronaviqasiya" kafedrası 2008-ci ildən fəaliyyət göstərir və "Hava hərəkətinin idarə olunması" və "Aeronaviqasiya təminatı" ixtisasları üzrə bakalavr hazırlığını həyata keçirir. Həmçinin "Hava hərəkətinin idarə olunması mühəndisliyi" ixtisası üzrə magistr hazırlığını həyata keçirir. Hazırda kafedrada 117 tələbə təhsil alır.

Kafedranın müəllim heyətinə AZANS-ın aparıcı mütəxəssislərinin cəlb olduğunu nəzərə alaraq, mülki aviasiyanın bu mühüm sahəsinin tədris prosesinə real təcrübə təmin olunur.

# Şahin Mustafayev: Çexiyada Azərbaycan Ticarət Evinin yaradılması imkanları araşdırılacaq



Çexiyada Azərbaycan Ticarət Evinin yaradılması imkanları araşdırılacaq.

AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Şahin Mustafayev Azərbaycanda səfərdə olan Çex Respublikasının sənaye və ticarət naziri xanım Marta Novakovanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşündə deyib.

Görüşdə Ş.Mustafayev Azərbaycan və Çexiya arasında siyasi, iqtisadi və mədəni əlaqələrin yüksələn xətlə inkişaf etdiyini deyərək ölkələrimiz arasında əməkdaşlığın uğurla inkişafında dövlət başçılarının qarşılıqlı səfərlərinin böyük əhəmiyyətini vurğulayıb. Ölkələrimiz arasında 2015-ci ildə Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə, müxtəlif sahələrdə, o cümlədən ticarət, iqtisadi, ikiqat vergitutma, sərmayələrin təşviqi və qorunması sahələrində 25 sənəd imzalanıb.

Azərbaycan və Çexiya arasında Hökumətlərarası Komissiyanın fəaliyyət göstərdiyini qeyd edən nazir komissiyanın növbəti iclasının Çexiyada keçiriləcəyini bildirib. Qeyd edib ki, ölkələrimiz arasında ticarət əlaqələri genişlənir və ticarət dövriyyəsində müsbət dinamika müşahidə olunur. Qarşılıqlı investisiya qoyuluşları həyata keçirilir və çex şirkətləri ölkəmizdə müxtəlif sahələrdə uğurla fəaliyyət göstərir. Mərkəzi Avropa üzrə Azərbaycan ticarət nümayəndəsinin təyin olunması Çexiya ilə iqtisadi-ticarət əlaqələrinin inkişafında önəmli mexanizmdir. Bununla yanaşı, Çexiyada Azərbaycan Ticarət Evinin yaradılması imkanları da araşdırılacaq.

Bildirilib ki, Azərbaycan və Çexiyanın sənaye, tranzit, İKT, maliyyə, sığorta, turizm sahələrində əməkdaşlıq imkanları genişdir. Belə ki, Azərbaycanda yaradılmış sənaye parklarında və sənaye məhəllələrində Çexiya şirkətləri iştirak edə, birgə müəssisələr yaradıla bilər. Kimya sahəsində əməkdaşlıq imkanları genişdir və bunun üçün Azərbaycanda ixtisaslaşmış Sumqayıt Kimya Sənaye Parkı, polietilen və propilen istehsal edən zavod fəaliyyət göstərir. Bundan başqa, Çexiya Azərbaycanın nəqliyyat infrastrukturu və tranzit imkanlarından istifadə edə, əczaçılıq sahəsində əməkdaşlıq həyata keçirilə bilər.

Çex Respublikasının sənaye və ticarət naziri xanım M.Novakova Azərbaycan iqtisadiyyatının uğurla inkişaf etdiyini, Çexiyanın ölkəmizlə iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu vurğulayıb. Bu sahədə fikirlərini bölüşən nazir sənayenin müxtəlif sahələri, tikinti, turizm, logistika, İKT, birgə müəssisələrin yaradılması sahələrində qarşılıqlı əməkdaşlıq imkanlarını qeyd edib. O, Praqada və Çexiyanın digər şəhərlərində Azərbaycanın Ticarət evlərinin açılmasında maraqlı olduqlarını diqqətə çatdırıb, bunun ticarət əlaqələrinin genişləndirilməsi və Azərbaycan məhsullarının Çexiyaya ixracının artırılmasında önəmini qeyd edib.

# Tomas Qreminger: Azərbaycan ATƏT-in fəal üzvüdür, təşkilatın fəaliyyətinə mühüm töhfələr verir






ATƏT-in baş katibi Tomas Qreminger sentyabrın 12-də ADA Universitetində "ATƏT dialoqun yenilənməsi və inamın bərpa olunması üçün platforma kimi" mövzusunda mühazirə oxuyub.

AZƏRTAC xəbər verir ki, əvvəlcə ADA Universitetinin prorektoru Fariz İsmayılzadə Tomas Qremingerin fəaliyyəti haqqında tədbir iştirakçılarına məlumat verib.

ATƏT-in baş katibi Bakıya səfərindən, ADA Universiteti kimi nüfuzlu təhsil ocağında məruzə ilə çıxış etməkdən məmnunluğunu bildirib. Baş katib qeyd edib ki, Bakıya səfərinin məqsədi Azərbaycanla ATƏT arasında əlaqələrin daha da inkişaf etdirilməsi potensialını araşdırmaqdır. Azərbaycan ATƏT-in fəal üzvüdür, təşkilatın fəaliyyətinə, o cümlədən dialoqun qurulmasına mühüm töhfələr verir. Biz bunu yüksək qiymətləndiririk və hesab edirik ki, əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün potensial mövcuddur.

Tomas Qreminger bildirib ki, hazırda dünyada hərbi konfliktlərin mövcud olduğu bölgələrin coğrafiyası genişlənməkdə davam edir. Hər yerdə sülhün bərqərar olması, dialoq platformasının yenilənməsi və inamın bərpa olunması istiqamətində ciddi addımların atılması olduqca vacibdir.

Baş katib Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli yolu ilə bağlı fikirlərini də bölüşüb. O deyib ki, ATƏT-in Minsk qrupunun həmsədr ölkələri təşkilatın Nazirlər Şurasının Brüsseldə keçirilən toplantısında Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, Helsinki Yekun Aktının prinsipləri əsasında həlli üçün vasitəçilik missiyasında birgə mövqedən çıxış etdiklərini bir daha təsdiq ediblər. **"Biz ATƏT-in Minsk qrupunun Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı fəaliyyətini dəstəkləyirik"**, - deyə Tomas Qreminger bildirib.

# Tomas Qreminger: Azərbaycan ilə ATƏT arasındakı münasibətlərin daha da inkişafı üçün imkanlar mövcuddur



Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov sentyabrın 12-də ATƏT-in baş katibi Tomas Qreminger ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Oqtay Əsədov ATƏT-in baş katibinin ölkəmizə səfərinin qarşılıqlı əlaqələrin inkişafına böyük töhfə verəcəyinə əminliyini ifadə edib. Azərbaycan ATƏT-lə qarşılıqlı hörmət və ümumi maraqlar naminə konstruktiv əməkdaşlıqda maraqlıdır. ATƏT nümayəndələri ilə aparılan danışıqlar əməkdaşlığımızın hazırkı vəziyyəti və perspektivləri, ölkəmizin ATƏT-dən gözləntiləri barəsində ətraflı fikir mübadiləsinin aparılması üçün əlverişli imkan yaradır.

Milli Məclisin sədri qeyd edib ki, biz ATƏT məkanında münaqişələrin həllində ATƏT-in məsuliyyətinin prioritet kimi saxlanılmasının tərəfdarıyıq. Bu təşkilatın Minsk qrupu 25 ildir ki, Dağlıq Qarabağ probleminin həlli ilə məşğul olur. Təşkilatın sənədlərində ölkələrin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipi əks olunsa da, Ermənistan tərəfi bu hüquqi normalara hələ də saymamazlıq nümayiş etdirir. İşğalçı ölkəyə qarşı təşkilat tərəfindən qəti addımların atılmaması ölkə ictimaiyyətində bu quruma olan inamı azaldır. Ermənistanın yeni rəhbərliyi məsələnin həlli istiqamətində konstruktiv addımlar atmaq əvəzinə, qızışdırıcı mövqe tutur. Bütün bunlara baxmayaraq, biz problemin sülh yolu ilə, beynəlxalq hüquq normaları çərçivəsində həllinə inanırıq.

Oqtay Əsədov bildirib ki, bu gün dinamik inkişaf edən Azərbaycan Avropanın enerji təhlükəsizliyi arxitekturasına öz töhfəsini verməkdədir. Ölkəmizin birbaşa və fəal iştirakı ilə reallaşan qlobal miqyaslı neft və qaz kəmərləri, Şərqlə Qərbi birləşdirən dəmiryolu xəttinin istifadəyə verilməsi bu fikirlərin əyani sübutudur. Heç də təsadüfi deyil ki, ATƏT PA-da Azərbaycanın təşəbbüsü ilə İpək Yoluna dəstək qrupu yaradılıb. Bu mövzuda keçirilən konfrans Avropa ölkələrinin adı çəkilən məsələyə marağının əyani göstəricisidir. Biz inanırıq ki, ATƏT-lə əməkdaşlığımız gələcəkdə də hər iki tərəf üçün faydalı olacaq.

ATƏT-in baş katibi Tomas Qreminger bu vəzifədə ölkəmizə ilk dəfə səfər etdiyini vurğulayıb. Azərbaycan ilə ATƏT arasında münasibətlərin daha da inkişafı üçün imkanların mövcud olduğunu deyən baş katib qeyd edib ki, səfərinin əsas məqsədi təmsil etdiyi təşkilatla Azərbaycan arasında əlaqələrin bugünkü vəziyyəti və gələcək inkişaf perspektivləri barədə müzakirələr aparmaqdır. Qonaq Azərbaycan nümayəndə heyətinin ATƏT-in qurumlarında fəal iştirakını xüsusi vurğulayıb. Təşkilatda aparılan islahatlara Azərbaycanın da töhfə verdiyini söyləyib.

Söhbət zamanı tərəfləri maraqlandıran məsələlər barədə fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclis sədrinin müavini, ATƏT PA-da nümayəndə heyətimizin rəhbəri Bahar Muradova və digər rəsmi şəxslər iştirak ediblər.

# Milli Məclisin Aqrar siyasət komitəsinin payız sessiyasında ilk iclası keçirilib



Sentyabrın 12-də Milli Məclisin Aqrar siyasət komitəsinin 2018-ci ilin payız sessiyasında ilk iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclası açan komitə sədri Eldar İbrahimov əvvəlcə yaz və növbədənkənar sessiyalar dövründə görülən işlər barədə məlumat verib. Qeyd olunub ki, hesabat dövründə komitənin 7 iclası keçirilib, bu iclaslarda 18 məsələ, o cümlədən 14 qanun layihəsi müzakirə edilib. Bu sənədlərin əksəriyyəti Milli Məclisin plenar iclasında müzakirə edilərək qəbul olunub. Komitədə müntəzəm olaraq vətəndaşların qəbulu aparılıb, onları narahat edən məsələlərin həlli üçün lazımi köməklik göstərilib.

Hesabat dövründə komitənin ünvanına daxil olan 57 müraciətə, təklif, ərizə və şikayətə müvafiq qaydada baxılıb və onlardan 45-i araşdırılması üçün aidiyyəti təşkilatlara göndərilib.

Sonra Eldar İbrahimov payız sessiyası ərzində görüləcək işlərdən danışıb. Bildirilib ki, qarşıdakı sessiyada "Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında" qanun layihəsinin müzakirəsi nəzərdə tutulur. Eyni zamanda, bir sıra qanunlara əlavə və dəyişikliklər ediləcək.

Deputatlar komitənin yaz sessiyası dövründə fəaliyyətini qənaətbəxş qiymətləndirib, payız sessiyasının iş planını təsdiqləyiblər.

Daha sonra gündəlikdəki digər məsələlər müzakirə edilib.

Əvvəlcə "Yaşıllıqların mühafizəsi haqqında" Qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsi müzakirə edilib. Bildirilib ki, sənədin 11.0.2-ci maddəsində "və bələdiyyədən" sözləri ",bələdiyyə mülkiyyətində olan torpaqlardakı yaşıllıqların uçotu və monitorinqi barədə isə bələdiyyədən" sözləri ilə əvəz ediləcək.

Həmçinin "Yaşıllıqların mühafizəsi haqqında" Qanunda dəyişikliklər edilməsi barədə 2017-ci il 31 oktyabr tarixli Qanunun tətbiqi ilə əlaqədar olaraq İnzibati Xətalar Məcəlləsinə bir sıra texniki xarakterli dəyişikliklərin edilməsi nəzərdə tutulur.

Sonra deputatlar gündəlikdəki məsələlərlə bağlı fikir və təkliflərini səsləndiriblər.

Qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# Azərbaycan ilə ATƏT arasında əməkdaşlıq proqramları nəzərdən keçirilib



Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov sentyabrın 12-də ATƏT-in baş katibi Tomas Qreminger ilə görüşüb.

XİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Elmar Məmmədyarov ATƏT-in baş katibi Tomas Qremingeri və onu müşayiət edən nümayəndə heyətini salamlayıb, Azərbaycanın regional təşkilat olaraq ATƏT ilə əməkdaşlığa mühüm əhəmiyyət verdiyini diqqətə çatdırıb.

ATƏT çərçivəsində təhlükəsizliyin bölünməzliyinin fundamental prinsip olduğunu qeyd edən Elmar Məmmədyarov bütün üzv dövlətlərin Helsinki Yekun Aktı üzrə öhdəliklərinə sadiq olmasının vacibliyini bildirib. Bu xüsusda, nazir E.Məmmədyarov Ermənistanın ATƏT üzv dövləti qismində Helsinki Yekun Aktı ilə üzərinə götürdüyü öhdəliklərini kobud şəkildə pozaraq gücdən istifadə etməklə Azərbaycanın Dağlıq Qarabağ və ətraf regionlarının işğalını davam etdirdiyini vurğulayıb. O, təsis olunmasından etibarən ATƏT-in Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə məşğul olduğunu deyərək işğala əsaslanan status-kvonun dəyişdirilməsi və Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması üçün səylərinin artırılmasının vacibliyini bildirib.

Elmar Məmmədyarov əlavə edib ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz mövcudluğu regional sülh və təhlükəsizlik üçün başlıca təhdid olaraq qalmaqdadır.

Nazir ATƏT-in Minsk qrupunun həmsədrlərinin mandatını BMT Təhlükəsizlik Şurasının qətnamələrinin, Helsinki Yekun Aktının təşkil etdiyini xatırladıb. Azərbaycanın münaqişənin həllində irəliləyişə nail olmaq, regionda davamlı və ədalətli sülhü təmin etmək üçün substantiv və intensiv danışıqlara hazır olduğunu diqqətə çatdırıb.

Azərbaycanın regionda və bütövlükdə ATƏT məkanında iqtisadi əməkdaşlığın və uzlaşma xətlərinin yaradılması, multimodal nəqliyyat infrastrukturu imkanlarının təmin edilməsi istiqamətində gördüyü işlərdən bəhs edən nazir Elmar Məmmədyarov bu xüsusda Şərq-Qərb, Şimal-Cənub, Cənub-Qərb nəqliyyat marşrutlarını və artıq istismara verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xəttini qeyd edib. O əlavə edib ki, Azərbaycanın iştirakı və təşəbbüsü ilə həyata keçirilən bu kimi layihələr ATƏT məkanında iqtisadi inkişafa və çiçəklənməyə töhfə verməklə bərabər, regional sülh və təhlükəsizliyin də möhkəmlənməsinə xidmət edir.

Görüşdə ATƏT-in qeyd olunan nəqliyyat layihələrinin inkişafı baxımdan mühüm platforma rolunu oynaya biləcəyi vurğulanıb.

Söhbət zamanı əlaqələrin inkişafında parlament diplomatiyasının rolu qeyd edilib və bu xüsusda, ATƏT-in Parlament Assambleyası ilə əməkdaşlıq təqdir olunub. Həmçinin Azərbaycan və ATƏT arasında əməkdaşlıq proqramları nəzərdən keçirilib.

# Suraxanıda “Dini mərasimlər: ənənəvilik və müasirlik” mövzusunda seminar-müşavirə keçirilib



Sentyabrın 12-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Suraxanı Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə “Dini mərasimlər: ənənəvilik və müasirlik” mövzusunda seminar-müşavirə keçirilib.

Komitədən AZƏRTAC-a bildiriblər ki, tədbirdə DQİDK-nın, RİH-in rəhbər şəxsləri, dini icma sədrləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov mövzunun əhəmiyyətini yüksək qiymətləndirərək İslam dəyərlərinin öyrənilməsinin və düzgün təbliğ olunmasının, bu sahədə maarifləndirmə işinin təşkilinin daha da gücləndirilməsinin zəruriliyi, habelə dini icmaların cəmiyyətdə radikalizm meyillərinin qarşısının alınması və sosial məsələlərin həlli prosesinə cəlb edilmələri barədə ətraflı danışıb. İ.Abbasov, eyni zamanda, rayonda bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticələrindən də bəhs edib.

Daha sonra çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, İslam dini cəmiyyətin inkişafında mütərəqqi rol oynayır, eləcə də dinimiz bizim mənəvi tərbiyəmizə və ruhumuza təsir edir. Ulu öndər Heydər Əliyevin “Dinimiz milli-mənəvi sərvətimizdir” fikrini xatırladan Komitə sədri vurğulayıb ki, xalqımız hər zaman öz milli-mənəvi, o cümlədən dini dəyərlərinə sadiqlik nümayiş etdirir.

İslam dininin elmin, mədəniyyətin inkişafına mühüm töhfələr verdiyini diqqətə çatdıran M.Qurbanlı dinimizin xurafata, dini radikalizmə qarşı olduğunu diqqətə çatdırıb.

Qafqaz Müsəlmanları İdarəsinin qazısı, Nardaran qəsəbəsi “Rəhimə xanım ziyarətgahı” məscidi dini icmasının sədri Musa Qasımov və digərləri çıxışlarında qeyd ediblər ki, Məhərrəm ayı ilə əlaqədar bütün ölkə üzrə olduğu kimi, Suraxanı rayonunda da Aşura mərasimləri qanunvericilik çərçivəsində və nümunəvi şəkildə təşkil ediləcək.

# Gömrük İşçiləri Həmkarlar İttifaqı Birliyinin təsis konfransı keçirilib





Azərbaycan Respublikasının Gömrük İşçiləri Həmkarlar İttifaqları Birliyinin təsis konfransı və ilk məclisi keçirilib.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasından (AHİK) AZƏRTAC-a bildirilib ki, tədbirdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev, AHİK-in sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev iştirak edib.

Konfrans dövlət himninin səsləndirilməsi ilə başlanıb. Konfransı AHİK-nın sədri Səttar Möhbalıyev açıq elan edib və reqlamentə uyğun olaraq konfransın gündəliyi təsdiq edilərək rəyasət heyəti, redaksiya, mandat və hesablayıcı komissiyaların tərkibi və üzvləri seçilib. Sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanıb.

İştirakçılar Gömrük İşçiləri Həmkarlar İttifaqları Birliyinin təsis olunması, nizamnaməsinin qəbul edilməsi, Gömrük İşçiləri Həmkarlar İttifaqları Birliyinin AHİK üzvlüyünə daxil olması məsələlərini müzakirə edərək yekdilliklə qəbul edib.

Daha sonra təşkilati məsələlər müzakirə olunub və İbrahimov Səfər Qafar oğlunun namizədliyi irəli sürülüb. Açıq səsvermə nəticəsində Səfər İbrahimov Azərbaycan Gömrük İşçiləri Həmkarlar İttifaqı Birliyinin sədri vəzifəsinə seçilib. S.İbrahimov ona göstərilən etimadı doğruldacağına və ittifaq üzvlərinin sosial, məişət və iqtisadi problemlərinin həllində yaxından iştirak edəcəyinə söz verib.

Gömrük Komitəsinin sədri S.Mehdiyev gömrük xidmətinin, gömrük işçilərinin daim Prezident İlham Əliyevin diqqəti və qayğısı ilə əhatə olunduğunu, onların iş şəraitinin yaxşılaşdırılması, sosial-məişət problemlərinin həlli istiqamətində mühüm addımların atıldığını bildirib. O, Gömrük İşçiləri Həmkarlar İttifaqı Birliyinin yaradılmasını da bu istiqamətdə atılan mühüm və mütərəqqi addımlardan biri kimi qiymətləndirib və gömrük işçilərinin sosial məsələlərinin həllində birliyin mühüm rol oynayacağına əminliyini ifadə edib.

Sonda çıxış edən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyev Gömrük İşçiləri Həmkarlar İttifaqı Birliyinin təsis edilməsini mühüm hadisə kimi qiymətləndirib və təşkilatın fəaliyyətinin günün tələbləri səviyyəsində qurulması üçün AHİK tərəfindən daim dəstək göstəriləcəyini bildirib.

# Bakıda dünya yəhudilərinin Yeni il bayramı - “Roş-Ha-Şana” münasibətilə tədbir keçirilib








Bakıda Avropa yəhudiləri icmasının nümayəndələrinin və qonaqların iştirakı ilə dünya yəhudilərinin Yeni il bayramı - “Roş-Ha-Şana” münasibətilə tədbir keçirilib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, bayram tədbirində Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədrinin birinci müavini Səyyad Salahlı iştirak ediblər.

Şöbə müdiri Etibar Nəcəfov Prezident İlham Əliyevin təbrik məktubunu oxuyub.

Təbrik məktubunda dövlətimizin başçısı xalqlarımız arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərinin, tolerantlığın və multikultural dəyərlərin mövcud olduğu müasir Azərbaycan cəmiyyətində etnik-mədəni müxtəlifliyi milli dövlətçiliyimizin əvəzsiz nailiyyəti kimi qiymətləndirildiyini bildirib. Qeyd edib ki, ölkəmizin bütün xalqları, o cümlədən yəhudi icması Azərbaycanda həmişə əmin-amanlıq şəraitində yaşayıb, heç bir ayrı-seçkiliyə məruz qalmadan dil və mədəniyyətini, adət-ənənələrini qoruyub saxlayıb.

Daha sonra çıxış edən Avropa Yəhudiləri icmasının sədri, Xalq artisti Aleksandr Şarovski dövlətin ölkəmizdəki bütün dinlərin və millətlərin nümayəndələrinə hər zaman diqqət və qayğı göstərdiyini bildirib. Vurğulayıb ki, yəhudi əsilli vətəndaşlarımız bu gün müstəqil Azərbaycanın ictimai-siyasi, elmi-mədəni həyatında, demokratik dövlət quruculuğu prosesində yaxından iştirak edir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı çıxışında ölkəmizdə mövcud olan multikulturalizm və tolerentlıq mühitindən bəhs edib. S.Salahlı qeyd edib ki, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq insan hüquq və azadlıqlarının təminatı, o cümlədən ölkədə sabitlik, əmin-amanlıq dövlətimizin siyasətinin prioritet istiqamətlərindəndir.

Tədbirdə Bakıdakı Avropa yəhudilərinin ravvini tərəfindən dini ayin icra edilib və təqvim üzrə başlayan növbəti yeni ildə bütün xalq və millətlərə sülh və əmin-amanlıq arzulanıb.

# Bakının ümumtəhsil müəssisələri 2018-2019-cu tədris ilinə tam hazırdır






Sentyabrın 12-də Bakı şəhəri təhsil işçilərinin ənənəvi sentyabr konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransda təhsil naziri Ceyhun Bayramov, təhsil nazirinin müavini, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) müdiri vəzifəsini icra edən Məhəbbət Vəliyeva, nazirliyin və idarənin struktur bölmə rəhbərləri, məktəb direktorları, müəllimlər, məzunlar və media nümayəndələri iştirak ediblər.

Əvvəlcə tədbir iştirakçıları Fəxri xiyabana gələrək xalqımızın Ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil qoyub, tər çiçəklər düzüblər.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

Tədbirdə M.Vəliyeva ötən dərs ilinin yekunları, əldə olunan nailiyyətlər və perspektiv məsələlərdən bəhs edib, ümumi təhsilin müxtəlif istiqamətləri üzrə görülmüş işlərə diqqət çəkib. O, BŞTİ-nin tabeliyindəki ümumtəhsil müəssisələrinin 2018-2019-cu tədris ilinə tam hazır olduğunu və növbəti dərs ilində daha yüksək nailiyyətlər qazanılacağına əminliyini bildirib.

Nazir müavini deyib ki, son illər ümumi orta və tam orta təhsil səviyyələri üzrə buraxılış imtahanlarının nəticələrində, bütövlükdə isə ali və orta ixtisas təhsili müəssisələrinə qəbulda müsbət dinamika müşahidə edilməkdədir.

Sonra 2017-2018-ci tədris ili ərzində BŞTİ-nin fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Konfransda çıxış edən təhsil naziri Ceyhun Bayramov təhsil sahəsindəki uğurlardan və mövcud problemlərin həlli istiqamətində atılacaq addımlardan danışıb. “Bilik günü” münasibətilə təhsil işçilərinə təbriklərini çatdıran nazir bir sıra həlli vacib məsələlərə, yeni dərs ilində qarşıda duran əsas hədəflərə toxunub.

Təhsil naziri respublika üzrə bilik yarışlarında, beynəlxalq olimpiadalarda və ali məktəblərə qəbul imtahanlarında uğur qazanan şagirdlərin sayının ildənilə artdığını bildirib.

Buraxılış sinif şagirdlərinin nailiyyətlərinin əvvəlki illərə nisbətən əhəmiyyətli dərəcədə yaxşılaşması istiqamətində görülən işlərdən danışan C.Bayramov məktəb idarəetməsi, məktəblərin reytinqi, müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması və ümumilikdə tədrisin keyfiyyətinin yüksəldilməsi kimi məsələlərin növbəti tədris ilində əsas prioritet istiqamətlərdən olacağını diqqətə çatdırıb.

Daha sonra 35 nömrəli tam orta məktəbin ingilis dili müəllimi Pərvanə Talıbova, müəllimlərin işə qəbulu müsabiqəsində 55 bal toplayan İsmayıllı şəhər 4 nömrəli tam orta məktəbin tarix müəllimi Ülvi Şamilov, 244 nömrəli tam orta məktəbin məzunu və bu il ali məktəblərə qəbul imtahanında 666 bal toplayan, Azərbaycan Dillər Universitetinin birinci kurs tələbəsi Rəşidə Həqiqətli çıxış edərək təhsil sahəsinin inkişafı istiqamətində dövlətimiz tərəfindən görülən işlərdən danışıb və bu sektorun daim diqqət mərkəzində olduğunu bildiriblər.

Sonda pedaqoji ixtisaslar üzrə ali məktəblərə yüksək balla qəbul olunmuş tələbələrə təşəkkürnamələr təqdim edilib. Həmçinin yüksək balla müəllim kimi işə qəbul olunan, eləcə də uzun müddət təhsil sistemində çalışan müəllimlər mükafatlandırılıblar.

# Azərbaycan Respublikası Prokurorluğunun 100 illik yubileyinə həsr olunmuş elmi-praktiki konfrans keçirilib



Sentyabrın 12-də Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Azərbaycan Respublikası Prokurorluğunun 100 illik yubileyinə həsr olunmuş elmi-praktiki konfrans keçirilib.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, konfransda Azərbaycan Respublikası Milli Məclisinin, Ədliyyə və Daxili İşlər nazirliklərinin, Konstitusiya Məhkəməsinin, Ali Məhkəmənin, qeyri-hökumət təşkilatlarının nümayəndələri, Baş Prokurorluğun idarə və şöbə rəisləri, digər rəsmi şəxslər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan baş prokurorun müavini Namiq Əsgərov Azərbaycan Respublikası Prokurorluğunun yaranma tarixi, onun inkişafının əsas mərhələləri, qazandığı uğurlar, qanunçuluğun və dövlətçiliyin qorunmasında səmərəli fəaliyyəti və bütövlükdə respublikamızda hüquqi dövlətin qurulmasında və hüquq sisteminin möhkəmləndirilməsində artan rolu barədə ətraflı məlumat verib.

Bildirilib ki, Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci il mayın 28-də Azərbaycanın dövlət müstəqilliyini bəyan etdiyi “İstiqlal Bəyannaməsi”ndə müəyyən olunmuş prinsiplərə sadiq qalmaqla konkret tarixi şəraiti nəzərə alaraq ölkənin ərazi bütövlüyünü və müstəqilliyini qoruyub saxlamaq, insan hüquq və azadlıqlarını dolğun təmin edən demokratik dövlət yaratmaq, hakimiyyətin üç qolunu - qanunvericilik, icra və məhkəmə orqanlarını formalaşdırmaq məqsədilə mühüm qanun və qərarlar qəbul edib. Milli tələblərə və demokratik prinsiplərə cavab verən hakimiyyətin əsasını təşkil edən dövlət orqanları yaradılıb, o cümlədən Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1918-ci il 1 oktyabr tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq təsis edilməklə fəaliyyətə başlayıb.

Qeyd edilib ki, xalqımızın Ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə hazırlanaraq 1995-ci ildə referendumla qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ölkənin hüquqi, demokratik dövlət quruculuğu istiqamətində inkişafının təsisatlarını, dövlətin və idarəetmənin hüquqi əsaslarını, hüquq sisteminin bünövrəsini formalaşdırıb. Əsas Qanunda Azərbaycan Respublikası Prokurorluğuna xüsusi maddə həsr edilərək dövlət idarəetmə sistemində bu dövlət təsisatının yeri məhkəmə hakimiyyəti orqanları sırasında müəyyən edilməklə prokurorluq orqanlarına ilk dəfə olaraq konstitusion status verilib. Prokurorluğun məhkəmə hakimiyyətinə aid edilməsi onun dövlət idarəetmə mexanizmində roluna və iştirakına dair məsələlərə Konstitusiya səviyyəsində aydınlıq gətirməklə yanaşı, müasir prokurorluq orqanlarının Azərbaycan Xalq Cümhuriyyətinin prokurorluq qurumunun hüquqi varisi olmasını təsdiqləyib.

Tədbirdə xüsusi vurğulanıb ki, Ulu öndər Heydər Əliyevin hər il oktyabr ayının 1-nin Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı günü kimi qeyd edilməsinə dair imzaladığı 1998-ci il 17 iyul tarixli Sərəncamı bu əlamətdar tarixi əbədiləşdirməklə, reallığı bərpa edib və prokurorluğun demokratik və hüquqi cəmiyyətdə statusu məsələsinə dövlət səviyyəsində münasibət bildirib. Azərbaycan Respublikası Prokurorluğu orqanlarının bu gün dünya standartlarına uyğun fəaliyyəti qanunçuluq, hər kəsin qanun qarşısında hüquq bərabərliyi, insan və vətəndaş hüquqlarının təmin olunması prinsiplərinə əsaslanan, demokratik cəmiyyətdə özünəməxsus yer tutan orqan kimi formalaşması və prokurorluq orqanlarının konstitusion statusa malik olmaqla dövlət idarəetməsində mühüm əhəmiyyət daşıması yalnız Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə başlanan və Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən məhkəmə-hüquq islahatları və hərtərəfli dövlət dəstəyi nəticəsində mümkün olub.

Baş Prokurorluğun idarə rəisləri Nazir Bayramov, Natiq Hüseynov, Elşən Abbasov, Nazim Rəcəbov, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəis müavini Orxan İsayev tədbirdə prokurorluğun tarixi, prokurorluğun hüquqi statusu ilə bağlı elmi-nəzəri baxışlar və təcrübədə tətbiq olunan modelləri, prokurorluq orqanlarının cinayət mühakimə icraatında və ondan kənarda vəzifə və səlahiyyətləri, milli prokurorluğun ölkənin inkişaf strategiyasına uyğun olaraq institusional baxımdan təkmilləşdirilməsi istiqamətləri barədə danışıblar. Həmçinin prokurorluğun Azərbaycan Xalq Cümhuriyyəti dövründə məhkəmə orqanlarının tərkibində fəaliyyəti, müasir dövrdə qanunvericilik aktlarının layihələrinin hazırlanması və bu sahədə normayaradıcı prosesin yüksək tələblər səviyyəsində həyata keçirilməsi, eləcə də milli dövlətçiliyin möhkəmləndirilməsində prokurorluq orqanlarının rolu, korrupsiyaya qarşı mübarizənin prokurorluğun prioritet fəaliyyət istiqaməti və prokurorluğun kadr tərkibinin müasirləşdirilməsi mövzularında çıxışlar ediblər.

Konfransda çıxış edən Milli Məclisin deputatı Çingiz Qənizadə, vətəndaş cəmiyyəti institutunun rəhbərləri Rauf Zeyni, Əliməmməd Nuriyev, Ədliyyə Nazirliyinin nümayəndəsi Elçin Xələfov prokurorluğun son 100 il ərzində keçdiyi və dövlət səviyyəsində yüksək dəyərləndirilən inkişaf yolu və həyata keçirilən islahatlar barədə məlumat veriblər. Çıxışlarda Azərbaycan Respublikası Prokurorluğu orqanlarında qanunçuluq prinsiplərinin daim ön plana çəkildiyi, cəmiyyətdə prokurorluğa ictimai etimadın artdığı və onun nüfuzunun yüksəldiyi xüsusi vurğulanıb. Dövlətin bu mühüm təsisatının cəmiyyətin və ölkənin maraqlarının qorunmasında, qanunçuluğun təmin edilməsində, bütövlükdə hüquq sisteminin inkişafında əhəmiyyətli rol oynadığı müsbət qiymətləndirilib və bu istiqamətdə işlərin eyni intensivliklə davam etdiriləcəyinə inam ifadə olunub.

Baş prokurorun müavini konfransa yekun vuraraq onun Azərbaycan Prokurorluğunun 100 illik yubileyinə həsr edilmiş mühüm tədbirlərdən biri olduğunu, səmərəli, canlı müzakirələr və faydalı fikir mübadiləsi şəraitində keçdiyini bildirib.

# Gömrük orqanlarında aparılan islahatlar və nəticələri açıqlanıb



Sentyabrın 12-də Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində Dövlət Gömrük Komitəsi rəhbərliyinin iştirakı ilə "Gömrük orqanlarında son islahatlar və nəticələr" mövzusunda mətbuat konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, mətbuat konfransında Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev 2018-ci ilin 8 ayı ərzində görülən işlərlə bağlı hesabat nitqi ilə çıxış edib. Bildirib ki, ölkəmizin gömrük orqanları öz fəaliyyətində kütləvi informasiya vasitələri və ictimaiyyətlə əlaqələrə, vətəndaşların gömrük orqanlarının işi və gömrük sistemində yeniliklər barədə davamlı məlumatlandırılmasına xüsusi diqqət yetirir.

S.Mehdiyev kütləvi informasiya vasitələri ilə qurulan işgüzar münasibətlərin gömrük işinin səmərəli şəkildə təşkilinə, mövcud problemlərin dərhal aradan qaldırılmasına xüsusi töhfə verdiyini diqqətə çatdırıb və media nümayəndələrinə təşəkkürünü ifadə edib.

Əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan iqtisadi sistemin davamlılığının təmin olunması və qorunmasında gömrük orqanlarının mühüm rol oynadığını vurğulayan komitə sədri onu da diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin uğurla davam etdirdiyi siyasətin nəticəsi olaraq gömrük orqanlarında islahatların aparılması istiqamətində mühüm işlər görülür. Bildirib ki, gömrük orqanlarında həyata keçirilən islahatlar ölkənin iqtisadi təhlükəsizliyini təmin etməklə yanaşı, sahibkarlıq mühitinin yaxşılaşdırılması və biznes mühitinin inkişafına da töhfəsini verir. Gömrük orqanlarının fəaliyyətinin yeni fəlsəfəsi formalaşdırılır, sahibkarlıq subyektləri ilə səmərəli dialoq qurulur, şəffaflıq təmin edilir, gömrük prosedurları sadələşdirilir, qanunvericilik bazası ardıcıl olaraq təkmilləşdirilir.

Komitə sədri cari ilin son 4-5 ayı ərzində gömrük-sərhəd keçid məntəqələrinə təşkil edilən mediaturlar çərçivəsində fiziki şəxslərin sərhəddə keçid tezliyinin təmin olunması, idxal və ixrac olunan mal və nəqliyyat vasitələrinin qeydiyyatı, ölkəmizə gələn və ölkədən gedən turistlərin "Yaşıl dəhliz" və digər keçid zolaqlarından istifadə etməklə gömrük qanunvericiliyinə əməl olunması proseslərinin əyani şəkildə nümayiş etdirildiyini, bunun da ictimai nəzarətin nümunəsi olduğunu vurğulayıb.

Daha sonra struktur və kadr islahatlarının nəticələri üzrə görülən işlər barədə media nümayəndələrini məlumatlandıran S.Mehdiyev bildirib ki, komitənin strukturuna daxil olan sərhəd və təyinat gömrük idarələrinin bazasında 5 baş idarə, komitənin aparatında yeni baş idarələr və idarələr yaradılıb: **"Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 iyul tarixli Fərmanının müvafiq bəndlərinin icrasını təmin etmək məqsədilə Dövlət Gömrük Komitəsinin Gəncə, Tovuz, Balakən, Yevlax gömrük idarələrinin bazasında Qərb Ərazi Baş Gömrük İdarəsi, Astara, Biləsuvar, Şirvan, Xudafərin gömrük idarələrinin bazasında Cənub Ərazi Baş Gömrük İdarəsi, Xaçmaz Gömrük İdarəsinin bazasında Şimal Ərazi Baş Gömrük İdarəsi, Enerji Gömrük İdarəsi və Xəzər Dənizində Azərbaycan Respublikasının İqtisadi Mənafelərinin Mühafizəsi Gömrük İdarəsinin bazasında Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsi, Avtonəqliyyat Baş Gömrük İdarəsi və Aksiz Baş Gömrük İdarəsinin bazasında Aksizli Mallar üzrə Baş Gömrük İdarəsi yaradılıb".**

Qeyd olunub ki, komitənin aparatında struktur islahatları aparılmaqla, bir sıra idarələrin fəaliyyət istiqamətləri yeni çağırışlara uyğun müəyyənləşdirilib, müasir standartlara cavab verən baş idarələr yaradılıb. O cümlədən Gömrük Nəzarətinin Təşkili və Ticarətin Asanlaşdırılması Baş İdarəsi, Əməliyyat-İstintaq Baş İdarəsi, Gömrük Tariflərinin Tənzimlənməsi və Ödənişlər Baş İdarəsi, Texnoloji İnnovasiyalar və Statistika Baş İdarəsi, Gömrük Risklərinin İdarə Olunması və Audit Baş İdarəsi, Gömrük Sərhəd Buraxılış Məntəqələrinin İşinin Təşkili Baş İdarəsi yaradılıb və bu qurumlar yeni əsasnamələrlə funksiya və vəzifələrinin icrasına başlayıb. Eyni zamanda, digər müstəqil idarələrin də strukturu dəyişdirilərək beynəlxalq standartlara cavab verən təşkilati struktura malik idarələr formalaşdırılıb.

Komitə sədri onu da vurğulayıb ki, Dövlət Gömrük Komitəsinin strukturlarının Avropa standartlarına uyğunlaşdırılması, şəxslərə yeni idarəetmə prinsipləri ilə gömrük xidmətinin göstərilməsi ölkəmizin iqtisadi inkişafına öz töhfəsini verəcək. Aparılan genişmiqyaslı struktur islahatları, davamlı olaraq vəzifələrə daha bacarıqlı, mütərəqqi intellektə və biliyə malik peşəkar kadrların təyinatı idarəetmənin çevikliyini, eyni zamanda, hüquqi və fiziki şəxslərlə ünsiyyətdə gömrük xidmətinin operativliyini, bu xidmətdən yararlananların məmnunluğunu təmin edəcək.

Gömrük nəzarətinin təşkili sahəsində aparılan islahatlar barədə də məlumat verən S.Mehdiyev bu islahatların, ilk növbədə, biznes subyektlərinin, əsasən də kiçik və orta sahibkarlığın inkişafı üzrə bir sıra tədbirlərin görülməsini şərtləndirdiyini diqqətə çatdırıb. Qeyd edib ki, 60-a yaxın iqtisadi operatora "Yaşıl dəhliz" buraxılış sistemindən istifadəyə icazələrin verilməsi təmin edilib. Bu buraxılış sistemi üzərindən həm Türkiyə, Gürcüstan, Ukrayna və İran ilə bağlanmış sazişlər nəticəsində əldə olunan, həm də əvvəlcədən elektron formada göndərilən qısa idxal bəyannaməsi vasitəsilə təqdim olunan məlumatlar əsasında aparılan gömrük nəzarəti və risk qiymətləndirilməsinin nəticələrinə uyğun olaraq, gömrük-sərhəd buraxılış məntəqələrində gömrük qanunvericiliyi ilə müəyyən edilmiş məlumatlandırma və qeydiyyat əməliyyatlarının yerinə yetirilməsi ilə malların və nəqliyyat vasitələrinin fiziki yoxlanması aparılmadan gömrük proseduruna uyğun gömrük ərazisinə buraxılışı həyata keçirilir. Bu da, öz növbəsində, kiçik və orta sahibkarlıq subyektləri tərəfindən gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi prosesinə sərf olunan vaxt və xərclərin minimuma endirilməsinə şərait yaradır.

Bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 2 iyun tarixli Sərəncamına əsasən, Ümumi Tranzit Proseduru haqqında Konvensiya və Mallarla Ticarətdə Sənədləşmənin Sadələşdirilməsi haqqında Konvensiyanın idarəetmə orqanı olan Avropa İttifaqı - Avropa Azad Ticarət Assosiasiyasının Birgə Komitəsinin 2017-ci ilin dekabr ayında Norveçin Oslo şəhərində keçirilmiş iclasında Azərbaycan Respublikasına qeyd olunan konvensiyaların işçi qruplarında qeyri-formal müşahidəçi statusu verilməsi barədə qərar qəbul olunub. Yaxın gələcəkdə ölkəmizin sözügedən konvensiyalara qoşulması və Avropa Yeni Kompüterləşdirilmiş Tranzit Sisteminin tətbiqi respublikamızın ərazisindən keçən beynəlxalq gömrük tranziti prosedurunda daşınan malların həcminin artırılmasına səbəb olmaqla, ölkənin tranzit potensialının inkişaf etdirilməsində mühüm rol oynayacaq, Azərbaycan Respublikasında istehsal olunan - "Made in Azerbaijan" brendli malların Avropa Yeni Kompüterləşdirilmiş Tranzit Sisteminin üzvü olan Avropa qitəsində yerləşən ölkələrin bazarlarına çıxışı və təyinat yerlərinə çatdırılması üçün imkan yaradacaq. Beynəlxalq Yük Daşımaları (BYD) Kitabçası tətbiq edilməklə beynəlxalq yük daşımaları haqqında Gömrük Konvensiyası ilə tənzimlənən tranzit proseduru çərçivəsində həyata keçirilən daşımalar zamanı mal və nəqliyyat vasitələri barədə məlumatların əvvəlcədən elektron qaydada gömrük orqanlarına təqdim edilməsi məqsədilə TIR-EPD (Electronic Pre-arrival Declaration) sisteminin tətbiqi üçün müvafiq işlər davam etdirilir. Dövlət Gömrük Komitəsi və Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı (IRU) arasında əməkdaşlıq çərçivəsində BYD daşımaları zamanı ölkə ərazisinə gətirilən mal və nəqliyyat vasitələri barədə məlumatların öncədən elektron qaydada gömrük orqanları ilə mübadiləsini nəzərdə tutan TIR-EPD sisteminin tam şəkildə istifadəyə verilməsi gömrük orqanlarına təqdim edilən məlumatlara uyğun olaraq risklərin analizinin səmərəli şəkildə həyata keçirilməsi əsasında BYD daşımalarında iştirak edən nəqliyyat vasitələrinin sərhəddən daha sürətli və prioritet qaydada keçidi üçün şərait yaradacaq.

Komitə sədri 2016-cı ildən Avropa İttifaqının İnteqrəedilmiş Sərhəd İdarəçiliyi üzrə Şərq Tərəfdaşlığı Paneli çərçivəsində "Azərbaycan və Gürcüstan arasında Qırmızı Körpü sərhəd-keçid məntəqəsinin inkişafına dəstək" layihəsinin tətbiqinə başlanıldığını, layihə üzrə yaxın zamanlarda tikintisi başa çatdırılması nəzərdə tutulan Ticarətin Asanlaşdırılması Mərkəzinin (Trade Facilitation Unit) sərhəd-buraxılış məntəqələrində əməliyyat və prosedurların daha da sürətləndirməsinə yardım edəcəyini, sanitar, fitosanitar, baytar və gömrük nəzarətinin sərhəd-keçid məntəqəsindən kənarda, terminal ərazisində aparılmasına əlverişli imkanlar yaradacağını vurğulayıb.

Maliyyə intizamının gücləndirilməsi sahəsində aparılan islahatlar nəticəsində dövlət büdcəsi qarşısında illik proqnoz və öhdəliklərin yerinə yetirilməsi işində də mühüm nailiyyətlər əldə edildiyini bildirən S.Mehdiyev 2018-ci il üzrə Dövlət Gömrük Komitəsi üçün ilkin proqnozlaşdırılan 2 milyard 430 milyon manat proqnozun 760 milyon manat artırılaraq ümumilikdə 3 milyard 190 milyon manata çatdırıldığını, dürüstləşmə nəzərə alınmadan 2018-ci ilin 8 ayı ərzində 1 milyard 569 milyon 780 min manat proqnoza qarşı faktiki olaraq 2 milyard 270 milyon 964 min manat vəsaitin toplanaraq dövlət büdcəsinə ödənildiyini, bununla da büdcə öhdəliyinə 144,67 faiz və ya 701 milyon 184 min manat çox əməl olunduğunu diqqətə çatdırıb: **"Dürüstləşmədən sonra isə artım nəzərə alınmaqla büdcə öhdəliyi 2 milyard 131 milyon 45 min manat təşkil etməklə, faktiki toplanan 2 milyard 270 milyon 964 min manat gömrük vergi və rüsumlarına nisbətdə 106,57 faiz və ya 139 milyon 919 min manat çox icra olunub".**

Gömrük işinin bütün sahələrində informasiya texnologiyalarının geniş şəkildə tətbiq edildiyini bildirən komitə sədri Texnoloji İnnovasiyalar və Statistika Baş İdarəsi tərəfindən Azərbaycan Respublikası gömrük xidmətinin vahid avtomatlaşdırılmış idarəetmə sisteminin təkmilləşdirilməsi, məlumatların yoxlanılması və emalı, gömrük işi sahəsində fəaliyyətin qiymətləndirilməsi və biznes-prosesin təkmilləşdirilməsi, innovasiya layihələrinin tətbiqi, korporativ şəbəkənin genişləndirilməsi və təkmilləşdirilməsi, elektron gömrük xidmətlərinin təşkili, gömrük xidmətinin informasiya resurslarının təhlükəsizliyinin təmin edilməsi, Azərbaycan Respublikasının xarici ticarətinin təhlilinin aparılması və gömrük statistikasının təkmilləşdirilməsi sahələrində görülən işlər barədə də ətraflı məlumat verib.

Bildirilib ki, Elektron Hökumət Portalı vasitəsilə göstərilən xidmətlərin sayı artırılıb və ümumilikdə 2 milyon 50 mindən çox şəxs elektron xidmətlərdən istifadə edib. Eyni zamanda, 14 dövlət qurumu və bir sıra özəl təşkilatlarla onlayn şəkildə məlumat mübadiləsi təmin edilib.

Diqqətə çatdırılıb ki, informasiya texnologiyaları sahəsində Azərbaycan gömrük orqanlarının əldə etdiyi nailiyyətlər Ümumdünya Gömrük Təşkilatı və digər beynəlxalq qurumlar tərəfindən inkişaf etməkdə olan ölkələrə tövsiyə olunur.

S.Mehdiyev gömrük qanunvericiliyinin təkmilləşdirilməsi, beynəlxalq əlaqələr, müxtəlif dövlətlərlə imzalanan saziş, protokol və memorandumlar barədə də media nümayəndələrini məlumatlandırıb.

Sonda jurnalistlərin sualları cavablandırılıb.

# Sevinc Fətəliyeva: Paşinyanın Moskva səfəri Rusiya ilə mövcud gərginliyi aradan qaldırmayıb

Nikol Paşinyan Ermənistanın əvvəlki rəhbərləri kimi, Azərbaycan-Rusiya münasibətlərinin vəziyyətini yaxından təqib edir. Təsadüfi deyil ki, Ermənistanın baş nazirinin Moskvaya səfəri Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya rəsmi səfərindən bir həftə sonra baş tutur. Amma bu iki səfər müqayisə edilə bilməz. Azərbaycan və Rusiya prezidentlərinin çoxillik etibarlı dostluq əlaqələri mövcuddur. Rusiya Prezidenti və Ermənistanın baş naziri isə həm ikitərəfli münasibətlərin, həm də xarici siyasətin müxtəlif məsələləri ilə bağlı fərqli fikirlərə malikdirlər.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Yeni Azərbaycan Partiyasının beynəlxalq münasibətlər şöbəsinin müdiri, Milli Məclisin deputatı Sevinc Fətəliyeva bildirib.



Deputat qeyd edib ki, Prezident İlham Əliyevin Rusiyaya səfəri zamanı ikitərəfli əməkdaşlığın hüquqi bazasını əhəmiyyətli dərəcədə gücləndirən sənədlər imzalandı. Baş nazir Paşinyanın Moskvaya səfəri zamanı heç bir sənəd imzalanmadı, Ermənistan baş nazirinin bu tələsik hazırlanmış səfəri heç nə ilə yadda qalmadı. **"Yuxarıda qeyd olunanlar göstərir ki, hazırda Rusiya-Ermənistan münasibətləri aşağı səviyyədədir. Ermənistanın baş naziri bu əlaqələrin "parlaq" xarakterli olduğunu iddia edərək, öz ictimaiyyətini aldatmaqda davam edir. N.Paşinyanın Moskva səfəri Rusiya ilə mövcud gərginliyi aradan qaldırmayıb. Paşinyanın bu səfərinin ikitərəfli münasibətlərdə heç bir aktual məsələnin həllinə kömək etmədiyini deyən deputat vurğulayıb ki, Rusiya tərəfinin Ermənistana tədarük olunan qazın qiymətini qaldırmaq istəməyəcəyini bəyan etməsi hər halda erməni diplomatiyasının qələbəsi hesab edilə bilməz. "Bu daha çox Moskva tərəfinin zülm çəkən erməni xalqına güzəştinə bənzəyir",** - deyə Sevinc Fətəliyeva bildirib.

# Hikmət Babaoğlu: Milli maraqların təmin olunması intensiv dialoq və fəal diplomatik münasibətlərdən keçir

Müasir beynəlxalq münasibətlər sistemində milli maraqların təmin olunması hər bir ölkənin və onun liderinin qarşısında duran əsas vəzifələrdən biridir. Milli maraqların təmin olunması, heç şübhəsiz ki, intensiv dialoq və fəal diplomatik münasibətlərdən keçir. Bu mənada, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin beynəlxalq münasibətlər sisteminin aktoru olan müxtəlif dövlətlərə müntəzəm səfərləri həm ölkəmizin dünyaya inteqrasiyasını təmin edir, həm də milli maraqların təmin olunmasına xidmət göstərir. Prezident İlham Əliyevin Rusiya, Qırğızıstan və Xorvatiyaya səfərləri zamanı keçirdiyi görüşlər və əldə olunmuş nəticələr də qarşılıqlı faydalı münasibətlərin inkişafı, o cümlədən milli maraqların təmin olunması baxımından olduqca əhəmiyyətlidir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib. O qeyd edib ki, Prezident İlham Əliyevin Rusiyaya rəsmi səfəri nəticəsində ölkələrimiz arasında ikitərəfli münasibətlərdə yeni səhifə açıldı. Prezident İlham Əliyevin Xorvatiyaya rəsmi səfərinin də həm iki ölkə arasında münasibətlərin, həm də Azərbaycan-Avropa İttifaqı əlaqələrinin inkişafı baxımından mühüm əhəmiyyətə



malik olduğunu deyən H.Babaoğlu vurğulayıb ki, səfər çərçivəsində müxtəlif sahələri əhatə edən əməkdaşlığın inkişafına dair aktual məsələlər müzakirə edildi. Bu, hər iki ölkənin milli maraqlarının təmin olunması və qarşılıqlı faydalı əməkdaşlığın dərinləşdirilməsi baxımından böyük önəm kəsb edir. Prezident İlham Əliyevin Qırğız Respublikasının Çolpon-Ata şəhərində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Zirvə görüşündə iştirakı da mühüm əhəmiyyətə malikdir. Ümumiyyətlə, artıq ənənə halını alan bu tipli görüşlər çoxtərəfli diplomatik münasibətlərin, mədəni, iqtisadi və humanitar əlaqələrin inkişafına xidmət edir. Macarıstanın da bu görüşdə iştirak etdiyini nəzərə alaraq qeyd edə bilərik ki, bu format daha da genişlənir, gələcəkdə daha effektiv əməkdaşlıq və tərəfdaşlıq platformasına çevrilmək potensialına malikdir.

**"Bütün bu səfərlərin ortaq cəhəti ondan ibarətdir ki, onların əsasında Azərbaycanın ikitərəfli münasibətlərinin inkişafı, dünyaya inteqrasiya etməsi və ölkəmizin ərazi bütövlüyünün təmin olunması məsələsində beynəlxalq dəstəyin əldə olunması məqsədləri dayanır",** - deyən Milli Məclisin deputatı vurğulayıb ki, bu istiqamətdə həyata keçirilən intensiv diplomatik təmaslar uğurlu nəticələr verir. Xüsusilə də Prezident İlham Əliyevin ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərindən biri olan Rusiya Federasiyasına səfər etməsi, bu dövlətin Cənubi Qafqazdakı nüfuzundan və Dağlıq Qarabağ münaqişəsinin həlli imkanlarından istifadə etməsi məsələsini aktuallaşdırması olduqca mühümdür.

Hikmət Babaoğlu bildirib ki, Azərbaycan Prezidenti tərəfindən həyata keçirilən fəal tərəfdaşlıq və əməkdaşlıq diplomatiyası yeni perspektivlər müəyyənləşdirməklə bərabər, eyni zamanda, ölkəmizin dünya iqtisadiyyatına uğurla inteqrasiya etməsinə və beynəlxalq siyasi proseslərdə söz sahibi olan dövlətlərdən birinə çevrilməsinə xidmət edir.

# YAP Ucar rayon təşkilatının üzvləri rayonun ictimai-mədəni, sosial-iqtisadi həyatında fəal rol oynayırlar

Yeni Azərbaycan Partiyası (YAP) Ucar rayon təşkilatının yaranmasının 25 illiyi münasibətlə təntənəli yığıncaq keçirilib.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, yığıncağın iştirakçıları əvvəlcə Yeni Azərbaycan Partiyasının yaradıcısı Ümummilli lider Heydər Əliyevin rayon mərkəzindəki abidəsini ziyarət edərək önünə gül dəstələri düzüb, Ulu öndərin xatirəsini ehtiramla yad ediblər.



YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva yığıncağı açaraq Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə yaranan Yeni Azərbaycan Partiyasının çətin sınaqlardan çıxdığını, böyük və şərəfli yol keçdiyini və ümumxalq partiyasına çevrildiyini diqqətə çatdırıb.

Partiyanın Ucar rayon təşkilatının aparat rəhbəri Mirzalı Ağamalıyev bildirib ki, rayon təşkilatı 1993-cü il sentyabrın 11-də 48 nəfərin iştirakı ilə keçirilən təsis konfransında yaradılıb. Bu gün 68 ərazi təşkilatında 4000 nəfərdən çox üzv var. Onlar Ucar rayonunun ictimai-mədəni, sosial-iqtisadi həyatında fəal rol oynayırlar.

Təntənəli yığıncaqda YAP Ucar rayon təşkilatı Qadınlar Şurasının sədri, Qazyan kənd 1 nömrəli tam orta məktəbin müəllimi Yaqut Zeynalova, Yuxarı Şilyan kənd ərazi təşkilatının üzvü Nazir Məmmədov, rayon təşkilatının Gənclər Birliyinin sədr müavini Nuru Piriyev çıxış edib, görülən işlərdən danışıblar.

Tədbirdə partiya sıralarına yeni qəbul olunanlara üzvlük vəsiqələri təqdim olunub. Bir qrup partiya üzvünə YAP Ucar rayon təşkilatının fəxri fərmanı və qiymətli hədiyyələr verilib.

# Qırğızıstanın əsas televiziya kanalında Azərbaycan Xalq Cümhuriyyəti haqqında film nümayiş etdirilib

Ölkəmizin Qırğızıstandakı səfirliyin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) 100 illik yubileyi münasibətilə Bişkekdəki İctimai Televiziya və Radio Yayım Korporasiyası (KTRK) tanınmış teleaparıcı Nursultan Jakıpbekovun Azərbaycan haqqında hazırladığı videoçarx yayımlanıb. Həmçinin aparıcının Azərbaycanın Qırğızıstandakı səfiri Hidayət Orucovdan "Most drujbı" ("Dostluq körpüsü") proqramı üçün aldığı geniş müsahibə göstərilib. Sonra Bakı Media Mərkəzinin rəhbəri, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rolu olan Arzu Əliyevanın baş prodüseri olduğu "Əbədi ezamiyyət" sənədli filmi nümayiş etdirilib.

Nursultan Jakıpbekov verilişdə ölkəmizin və xalqımızın qədim, zəngin tarixi, mədəniyyəti, milli mənəvi dəyərlərimiz, bugünkü inkişafımız barədə məlumat verib.

Səfir müsahibəsində Azərbaycan Prezidenti İlham Əliyevin 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi ilə bağlı Sərəncam imzaladığını diqqətə çatdırıb və 100 il əvvəl müsəlman Şərqində yaranan ilk demokratik parlamentli respublika olan AXC-nin müsəlman dünyasında ilk dünyəvi respublika olduğunu vurğulayıb.




Diplomat qeyd edib ki, Azərbaycan ilə Qırğızıstan arasında əməkdaşlıq bütün sahələrdə inkişaf edir. Bu xətt Azərbaycan və Qırğızıstan prezidentləri İlham Əliyevin və Sooronbay Jeenbekovun siyasətinin prioritet istiqamətlərindəndir.

Səfir Azərbaycan ilə Qırğızıstan arasında ikitərəfli münasibətlər, Ulu öndər Heydər Əliyevin Qırğızıstana və qırğız xalqına qardaşlıq münasibəti, digər məsələlər haqqında söhbət açıb. Qeyd edib ki, biz kök bir, soy bir millətik, hər yerdə bir-birimizi dəstəkləməliyik.

H.Orucov jurnalistin III Dünya Köçəri Oyunları ilə bağlı sualına cavab olaraq bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, ölkəmiz 2014-cü, 2016-cı illərdə keçirilən birinci və ikinci Dünya Köçəri Oyunlarında fəal iştirak edib və builki yarışlarda da böyük nümayəndə heyəti ilə təmsil olunub.

Böyük şəxsiyyətlərdən danışan səfir bildirib ki, XX əsrin ikinci yarısında türk dünyası bəşəriyyətə dörd böyük şəxsiyyət bəxş edib - siyasətdə Atatürkü və Ümummilli lider Heydər Əliyevi, ədəbiyyatda Nazim Hikməti və Çingiz Aytmatovu.

H.Orucov Çingiz Aytmatovla bağlı suala cavabında deyib ki, Ulu öndər Heydər Əliyev Çingiz Aytmatovu həm yazıçı, həm də ziyalı və şəxsiyyət kimi yüksək dəyərləndirib. Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olaraq nəhəng ölkədə mədəniyyət məsələlərinin kuratoru kimi istedadlı yaradıcı insanları, həmçinin Çingiz Aytmatovu mövcud rejimin haqsız hücumlarından qoruyub. Onun tapşırığı ilə böyük yazıçının anadan olmasının 75 illiyinin Azərbaycanda qeyd olunması üçün hazırlığa başlanılmışdı, lakin 2003-cü il dekabrın 12-də - Çingiz Aytmatovun doğum günündə Ulu öndər əbədiyyətə qovuşdu. Bununla belə, böyük yazıçının 80 illik yubileyi 2008-ci ildə yüksək səviyyədə keçirildi. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə Çingiz Aytmatov "Dostluq" ordeninin ilk sahibi oldu.

# Bakının daşnak-bolşevik işğalından azad olunmasının 100 illiyi Respublika Veteranlar Təşkilatında qeyd edilib

Sentyabrın 12-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında Bakının daşnak-bolşevik qüvvələrinin işğalından azad olunmasının 100 illiyi ilə bağlı tədbir keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Respublika Veteranlar Təşkilatının sədri general-polkovnik Tofiq Ağahüseynov Azərbaycanın Milli Ordusunun Qafqaz İslam Ordusu ilə birlikdə Bakını daşnak-bolşevik qüvvələrinin işğalından azad etməsinin 100 illiyinin yaxın günlərdə qeyd olunacağını deyib. O bildirib ki, Azərbaycanın əsgər və zabitləri də türk qardaşlarımızla birlikdə Bakının düşməndən təmizlənməsində şərəflə döyüşüblər. Biz bu gün onları minnətdarlıq hissi ilə xatırlayırıq.



Respublika Veteranlar Təşkilatının sədr müavini ehtiyatda olan polkovnik Cəlil Xəlilov qeyd edib ki, Bakının daşnak-bolşevik işğalından azad olunması həm qürurverici hadisədir, həm də Türkiyə-Azərbaycan qardaşlığının bariz nümunəsidir. 1918-ci il sentyabrın 15-də Azərbaycan Əlahiddə Korpusu Qafqaz İslam Ordusu ilə birlikdə qanlı döyüşlər apararaq Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından xilas edib. Azərbaycan və türk əsgərlərinin, zabitlərinin igidliyi nəticəsində qısa müddətdə Bakı əsasən ermənilərdən ibarət olan daşnak-bolşevik qüvvələrindən azad olunub.

Qeyd edilib ki, Stepan Şaumyan 1918-ci ilin mart-iyul aylarında Bakı Sovetinə tabe olan daşnak silahlı dəstələrindən və bolşevik hərbi birliklərindən istifadə edərək Azərbaycanın Bakı, Şamaxı, Quba və başqa qəzalarında qırğınlar törədib, yüzlərlə yaşayış məskənini dağıdıb, dinc insanları amansızcasına qətlə yetirib. Həmin dövrdə Gəncə üzərinə yürüş edən düşmən qüvvələrinin qarşısının alınması üçün öz hərbi gücü yetərli olmadığından Azərbaycan nümayəndələri kömək məqsədilə Türkiyəyə, o zamankı Osmanlı dövlətinə müraciət ediblər. Bu müraciətə müsbət cavab verən qardaş dövlət Qafqaz İslam Ordusunu 1918-ci ilin mayında Azərbaycan ərazisinə köməyə göndərib. Burada general Əliağa Şıxlinskinin başçılıq etdiyi müsəlman milli korpusu ilə birləşən Nuru Paşanın rəhbərlik etdiyi həmin ordunun 1918-ci il iyunun əvvəllərində artıq 15 min əsgər və zabiti var idi.

Bildirilib ki, Bakı Sovetinin ixtiyarında olan, mütləq əksəriyyəti ermənilərdən ibarət hərbi birləşmələr iyunun 12-də Kürdəmiri işğal edib və Göyçaya yaxınlaşıblar. Göyçay ərazisində qanlı döyüşlər iki həftədən çox davam edib. Müqavimətə baxmayaraq, Türkiyədən göndərilən əlavə qüvvələr və Azərbaycan könüllüləri düşməni məğlub ediblər. Qafqaz İslam Ordusunun Göyçay ətrafındakı qələbəsi hadisələrin gedişini tamamilə milli hökumətin xeyrinə dəyişib, Azərbaycanın şərq hissəsi, o cümlədən Bakının daşnak-bolşevik işğalından azad edilməsi üçün ilk zəmin yaradıb. Daşnak-bolşevik birləşmələrini darmadağın edən Qafqaz İslam Ordusunun Bakı istiqamətində başlatdığı azadlıq yürüşündə növbəti şanlı qələbə iyulun 20-də mühüm strateji məntəqə olan Şamaxı şəhərinin azad edilməsi olub. Bakını əldə saxlamaq üçün müxtəlif qüvvələrdən kömək uman daşnak və bolşeviklər buna nail ola bilməyiblər. Qafqaz İslam Ordusunun avqustun 5-dən Bakı üzərinə intensiv hücumları qarşısında dayana bilməyən həmin qüvvələr geri çəkilib. 1918-ci ilin sentyabrında yaranmış beynəlxalq vəziyyət Bakının tezliklə azad olunmasını zəruri edib. Cümhuriyyət rəhbərləri Bakının azad edilməsi üçün ardıcıl iş aparıblar. Peşəkar Qafqaz İslam Ordusu güclü müqavimətə baxmayaraq, sentyabrın 15-də dörd mindən çox əsgər və zabiti şəhid vermək bahasına da olsa, Bakını düşmənlərdən azad edib. Bu tarixi günü qeyd etdiyimiz bir vaxtda hər birimizin qəlbindən Azərbaycan əsgərinin eyni sevinci, qüruru bizə Qarabağı erməni işğalından azad etməsi ilə yaşatması arzusu keçir. Biz inanırıq ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yaradılmış güclü ordumuz buna nail olacaq. Müasir Azərbaycan Ordusu düşmən işğalındakı ərazilərimizi azad etməyə, ölkənin ərazi bütövlüyünü bərpa etməyə tam qadirdir. 2016-cı ilin Aprel döyüşləri ordumuzun gücünü və döyüş əzmini bir daha aydın göstərdi, işğalçıya Azərbaycan əsgərinin qələbə əzmini nümayiş etdirdi. Biz veteranlar erməni işğalı altındakı Azərbaycan torpaqlarının şanlı ordumuz tərəfindən azad ediləcəyinə inanır və bu müqəddəs işdə ordumuzun yanında olduğumuzu bildiririk.

Tədbirdə Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin məsul əməkdaşı Rasim Mirzəyev, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tarix kafedrasının müdiri Firdovsiyə Əhmədova, Prezident yanında Bilik Fondunun sektor müdiri Hacı Nərimanoğlu və başqaları çıxış edərək Bakının düşmənlərdən azad olunması ilə bağlı 1918-ci ilin aprel-sentyabr aylarında Cümhuriyyət xadimlərinin fəaliyyətindən, Qafqaz İslam Ordusunun şücaətindən danışıblar. Qeyd ediblər ki, bu tarix Türkiyə və Azərbaycan arasında qardaşlıq münasibətlərinin və birliyin nümunəsidir. Bakının daşnak-bolşevik qüvvələrinin işğalından azad edilməsinin 100 illiyinin qeyd olunması tariximizin geniş auditoriyaya, xüsusilə də gənclərə aydın çatdırılması və cəmiyyətdə təbliğ olunması baxımından mühüm əhəmiyyət daşıyır.

Çıxış edənlər Azərbaycan Ordusunun öz sələflərinin yolunu şərəflə davam etdirdiyini və yaxın gələcəkdə qəhrəman Azərbaycan əsgərinin üçrəngli bayrağımızı hazırda işğal altında olan bütün ərazilərimizdə dalğalandıracağına inandıqlarını bildiriblər.

# Cəlal Süleymanov: Ən böyük arzum Olimpiya çempionu olmaqdır

*III Dünya Köçəri Oyunlarında milli güləş növü üzrə yarışda qızıl medal qazanan təmsilçimiz Cəlal Süleymanov redaksiyamızın qonağı olub*







Müstəqillik yolu ilə inamla irəliləyən Azərbaycanın qısa müddətdə böyük uğur qazandığı sahələrdən biri də idmandır. Tam qətiyyətlə demək mümkündür ki, artıq idman Azərbaycanda kütləvi hal alıb və ölkəmizdə getdikcə daha çox sayda gənc bu sahəyə üz tutaraq müxtəlif idman növləri ilə məşğul olmağı özlərinin həyat tərzinə çevirirlər. İdmançılarımızın mötəbər yarışlarda ölkəmizi uğurla təmsil edərək böyük nailiyyətlər qazanmaları və dünyanın möhtəşəm arenalarında himnimizi səsləndirmələri, Vətənə medallarla dönmələri Azərbaycanın beynəlxalq miqyasda müsbət imicinin formalaşmasına, nüfuzunun artmasına, daha geniş miqyasda tanınmasına müsbət təsir göstərir. Bir neçə gün əvvəl Qırğızıstanda başa çatan III Dünya Köçəri Oyunlarında (DKO) da atletlərimizin qazandığı nailiyyətlər bunun bariz sübutudur.

Məlumat üçün bildirək ki, Dünya Köçəri Oyunlarının keçirilməsinin məqsədi türk xalqlarının qədim idman ənənələrinin dirçəldilməsi və inkişaf etdirilməsi, ənənəvi idman mədəniyyətinin yaşadılması və Köçəri Oyunlarının dünyaya tanıdılmasıdır. İlk dəfə bu oyunlar 2014-cü ildə Qırğızıstanda keçirilib. Həmin il yarışlara dünyanın 19 ölkəsindən 22 komanda, 430-dan artıq idmançı qatılmışdı. Cari ildə idmanın 37 növü üzrə dünyanın 80 ölkəsindən 3 minə yaxın idmançı yarışlarda iştirak edib. Köçəri Oyunlarını dünyanın 60 ölkəsindən 604 jurnalist işıqlandırıb. Dördüncü Dünya Köçəri Oyunları isə 2020-ci ildə Türkiyədə keçiriləcək.

Qırğızıstanın ev sahibliyi etdiyi III Dünya Köçəri Oyunlarında Azərbaycanı 39 idmançı təmsil edib. Yarışlarda uğurla iştirak edən Azərbaycan idmançıları 15 medala layiq görülüblər. Təmsilçimiz Cəlal Süleymanov 60 kiloqram çəki dərəcəsində milli güləş növü üzrə yarışda qızıl medal qazanıb. Finala vəsiqə uğrunda qazaxıstanlı rəqibinə qalib gələn C.Süleymanov həlledici görüşdə Qırğızıstan təmsilçisini məğlubiyyətə uğradıb. İdmançımız qızıl medalla yanaşı, sentyabrın 5-də pəhləvan güləşi yarışlarında da millimizin aktivinə növbəti bürünc medalı yazdırmağı bacarıb. Qızıl medalı güləşçimizə III Dünya Köçəri Oyunlarına Azərbaycandan qonaq kimi dəvət edilən Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli təqdim edib. O, buna qədər də dəfələrlə Azərbaycan çempionu, Avropa və dünya çempionu olub.



Qeyd edək ki, ölkəmizə qızıl medalla dönən idmançımız C.Süleymanov öz həyat yoldaşı Zərif Süleymanova ilə birgə redaksiyamızın qonağı oldu. Qələbə sevincini oxucularımızla bölüşən Cəlal özü ilə qızıl medalını da redaksiyamıza gətirmişdi: **"Dünyanın 80 ölkəsindən idmançıların qatıldığı bir yarışda üçrəngli bayrağımızı yüksəklərə qaldırmaq və himnimizi səsləndirmək şərəfinə nail olmaq hər bir azərbaycanlı üçün qürurvericidir. Bu günə qədər əldə etdiyim hər şeyə görə məhz idmana borcluyam. Avropa və dünya çempionatlarında uğur qazanmaq mənim üçün böyük şərəfdir. Amma ən böyük arzum Olimpiya çempionu olmaqdır. Buna nail olmaq üçün yüksək texnika, gərgin və fasiləsiz məşqlər, inam, iradə, məsuliyyət tələb olunur. Ümumiyyətlə, istənilən idman yarışlarında qələbə qazanmaq üçün, ilk növbədə, psixoloji və fiziki cəhətdən hazırlıqlı olmaq əsas şərtdir".**

Qeyd edək ki, çempionumuzun həyat yoldaşı Zərif Süleymanova da idmançıdır. O, stolüstü tennis üzrə Azərbaycan çempionudur. **"Cəlalın uğurlarını gördükcə ailəcə çox sevinirik. Ona yalnız qələbə yaraşır. Çünki necə əziyyətlə çalışdığını mən görmüşəm. Həm özünün məşqçisidir, həm də tələbələr yetişdirir. Bu dəfəki qələbəsini də çox böyük həvəslə gözləyirdik. Qızım və oğlumla onun yarışlardan qələbə xəbəri ilə dönəcəyinə inanırdıq. Gələcəkdə övladlarımız da bizim kimi idmançı olmaq istəyirlər"**, - deyə Z.Süleymanova bildirib.

**Müşfiqə BAYRAMLI**

# Bakcell korporativ müştərilər üçün "Ailə günü" tədbiri təşkil edib





Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti özünün korporativ müştərilərinə etibar, sadiqlik və əməkdaşlığa görə minnətdarlığını bildirmək məqsədilə xüsusi "Ailə Günü" tədbiri təşkil edib.

Ötən həftəsonu Bakcell 60-dan çox şirkətin nümayəndələrini və onların ailə üzvlərini açıq havada təşkil olunmuş əyləncə və oyunlarda iştirak etmək üçün "Bakcell ailə günü" tədbirinə dəvət edib. Burada korporativ abunəçilər xoş əhval-ruhiyyə və dostluq mühitində ailələri və iş yoldaşları ilə birgə vaxt keçirib, digər şirkətlərin əməkdaşları ilə tanış olub və yeni biznes əlaqələri qurmaq imkanı əldə ediblər.

"Bakcell ailə günü" xüsusilə də uşaqların ürəyincə olub, çünki Bakcell onları əyləncə, maraqlı oyunlar və bol-bol hədiyyəli şən müsabiqələrlə sevindirib. Tədbir həmçinin DJ və ifaçıların performansı ilə müşayiət olunub. Bütün oyun və müsabiqələr xüsusi animatorlar tərəfindən keçirilib.

**"Həftə içində günün böyük hissəsini işdə olan insanlar istirahət günlərində öz ailələri və uşaqları ilə mümkün qədər çox vaxt keçirməyə çalışırlar. Bakcell bu ənənəyə sadiq qalaraq istirahət günündə öz biznes tərəfdaşlarını və onların ailələrini bir araya gətirdi. Münasibətlərimizi daha da möhkəmləndirmək, Bakcell ailəsinin vacib bir hissəsi olduqlarına görə korporativ abunəçilərimizə təşəkkür etmək üçün bu çox yaxşı bir imkan idi",** - deyə Bakcell şirkətinin baş satış direktoru Zaur Bayramov bildirib.

Bakcell şirkəti hazırda müxtəlif sahələri təmsil edən 3500-dən artıq korporativ müştəriyə xidmət edir. "Bakcell"in peşəkar komandası şirkətlərə, dövlət qurumlarına və digər təşkilatlara mobil telekommunikasiya sahəsində istənilən növ xidməti göstərməyə hazırdır. Bakcell özünün korporativ abunəçilərinə təhlükəsiz və etibarlı rabitə təqdim etməklə daha effektiv fəaliyyət göstərməkdə, müştəriləri ilə əməkdaşlıq və sıx ünsiyyət qurmaqda onlara dəstək göstərir.

7000-dən artıq baza stansiyası vasitəsilə Bakcell şəbəkəsi əhalinin 99%-ni, ölkə ərazisinin isə 93%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir. Mobil rabitə şəbəkələrinin müqayisəli testləri (bençmarkinq) sahəsində beynəlxalq lider və ən etibarlı müstəqil təşkilat olan "P3 Communications" şirkəti tərəfindən Bakcell şirkəti Azərbaycanda sınaq nəticələrinə görə, ən yaxşı şəbəkə adına layiq görülüb ("Best in Test").

# Hesablama Palatasının əməkdaşları İstanbulda seminarda iştirak edib





Hesablama Palatasının auditoru Firsənd Qurbanov və sosial sahələrin auditi şöbəsinin böyük məsləhətçisi Elgün Atalıyev İstanbulda İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin ali audit qurumlarının təmsil olunduğu ECOSAI təşkilatının (İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin Ali Audit Qurumları Təşkilatı) "Mövcud dövlət sektoru auditi qaydalarında problemlər" mövzusunda keçirdiyi seminarda iştirak edib.

Palatanın mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qurumun nümayəndələri seminarda "Ali audit qurumlarının milli büdcələrə səmərələşdirici təsiri" mövzusunda çıxış edərək Hesablama Palatasının dövlət büdcəsinin gəlir və xərclərinin layihəsinə, icrasına və dürüstləşməsinə rəy vermə prosesi, müxtəlif normativ hüquqi aktlarda dəyişikliklər edilməsinə dair hökumətə təqdim edilən təkliflər, həmçinin iki pilot səmərəlilik auditinin nəticələri barədə məlumat verib, digər iştirakçıların ünvanladıqları sualları cavablandırıb.

Dörd günü əhatə edən seminara təşkilata üzv 9 ölkənin 40-dək təmsilçisi qatılıb.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

KİVDF

# Regionlarda kənd və qəsəbələrin su təchizatının yaxşılaşdırılması tədbirləri davam etdirilir

## *2018-ci ilin sonunadək ümumilikdə 21 rayonun 46 yaşayış məntəqəsində yeni su layihələrinin reallaşdırılması nəzərdə tutulub*






Azərbaycanda son 15 il ərzində həyata keçirilən siyasət bütün sahələrin inkişafına təkan verib ki, bu istiqamətdə regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları çərçivəsində görülən işləri xüsusi vurğulamaq yerinə düşər. Məlum olduğu kimi, sözügedən Dövlət proqramları çərçivəsində bölgələrdə infrastruktur layihələri də uğurla icra edilib ki, bu sırada da içməli su və kanalizasiya layihələrini xüsusi olaraq qeyd etmək lazımdır. Daha doğrusu, son 15 ildə bütün ölkə boyu intensiv şəkildə həyata keçirilən genişmiqyaslı infrastruktur quruculuğu, o cümlədən paytaxtda və regionlarda reallaşdırılan yeni su və kanalizasiya layihələri nəticəsində respublikanın onlarla şəhər və qəsəbəsinin, kəndlərin içməli su təchizatının yaxşılaşması əhalinin kommunal xidmətlərlə təminatında çox ciddi keyfiyyət dəyişiklikləri yaradıb. Və bu istiqamətdə həyata keçirilən layihələr davamlı xarakter daşıyır.

"Azərsu" Açıq Səhmdar Cəmiyyətindən verilən məlumata görə, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq içməli su çatışmazlığının müşahidə edildiyi kənd və qəsəbələrin su təchizatının yaxşılaşdırılması tədbirləri davam etdirilir. Kəndlərdə yeni içməli su təchizatı sistemlərinin yaradılması Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" 9 aprel 2018-ci il tarixli Sərəncamı, eləcə də dövlət investisiya proqramı çərçivəsində həyata keçirilməklə ümumilikdə 21 rayonun 46 yaşayış məntəqəsini əhatə edir. Belə ki, müvafiq Sərəncama əsasən, respublikanın 13 rayonunun 30 yaşayış məntəqəsində içməli su layihələrinin icrası nəzərdə tutulur. Eyni zamanda, dövlət investisiya layihələri çərçivəsində 8 rayonun 16 yaşayış məntəqəsində su layihələri icra edilir. Ümumilikdə cari ildə 21 rayonun 46 yaşayış məntəqəsində 65 minədək sakinin içməli su təchizatı yaxşılaşdırılacaq. Artıq 10-a yaxın kənddə layihələrin icrası başa çatıb.

Beləliklə, layihələrə əsasən, bu kəndlərdə 386 km müxtəlif diametrli su xətlərinin tikintisi, əhalinin ümumi istifadəsi üçün 1272 ədəd bulağın quraşdırılması və digər su təchizatı infrastrukturlarının yaradılması nəzərdə tutulub. Qısa müddətdə həyata keçirilən tikinti-quraşdırma işləri nəticəsində 203 km su xətti çəkilib və 400-dək bulaq quraşdırılıb. Artıq Oğuz rayonunun Astarxanovka, Vladimirovka, Qarabulaq, Ağstafa rayonunun Yeni Gün, Masallı rayonunun Məmmədxanlı, Göyçay rayonunun İkinci Ərəbcəbirli, Şəmkir rayonunun Tatarlı, Qusar rayonunun Aşağı Ləyər və Xızı rayonunun Yeni Yaşma kəndlərində içməli su təchizatı layihələrinin icrası yekunlaşıb. Bununla da həmin kəndlərdə 15 minə yaxın sakin keyfiyyətli içməli suya çıxış imkanı qazanıb. Xatırladaq ki, "Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" Prezident Sərəncamına uyğun olaraq 2017-ci ildə 28 rayonun 170 kəndində layihələr icra olunub. Bu layihələr çərçivəsində 530 km-ə yaxın magistral və paylayıcı su xətləri çəkilib, əhalinin ümumi istifadəsi üçün 1432 bulaq quraşdırılıb. Bununla da 271 min nəfərin keyfiyyətli içməli suya çıxışı təmin edilib.

Dövlət başçısının sözügedən Sərəncamı çərçivəsində hazırda Tovuz rayonunun 5 kəndində içməli su layihələri həyata keçirilir. Verilən məlumata görə, Tovuz rayonunda icra olunan içməli su layihələri rayonun Qədirli, Xatınlı, Çilovdarlı, Əlimərdanlı və Qaraxanlı kəndlərini əhatə edir. Bu kəndlərin içməli su problemini həll etmək məqsədilə cari ilin iyun ayında yeni layihənin icrasına başlanılıb. Layihəyə əsasən, kəndləri keyfiyyətli içməli su ilə təmin etmək məqsədilə 2 ədəd subartezian quyusu qazılacaq. Buradan götürülən su həcmi 250 kubmetr olan mövcud su anbarına ötürüləcək. Layihə çərçivəsində həmin su anbarı əsaslı təmir olunacaq və suyun kəndlərə təzyiqlə ötürülməsini təmin etmək üçün nasos stansiyası quraşdırılacaq.

Ümumilikdə Tovuz rayonunun 5 kəndində 40 km su xətlərinin tikintisi və əhalinin ümumi istifadəsi üçün 175 ədəd bulağın quraşdırılması nəzərdə tutulub. Artıq kəndlərdə su xətlərinin tikintisi intensiv qaydada davam etdirilir və indiyədək 20 km su xətti çəkilib. Layihənin icrası tam başa çatdıqdan sonra Tovuz rayonunun Qədirli, Xatınlı, Çilovdarlı, Əlimərdanlı və Qaraxanlı kəndlərinin 12 mindən çox sakini keyfiyyətli içməli su ilə təmin ediləcək. Qeyd edək ki, indiyədək bu kəndlərdə içməli su şəbəkəsi mövcud olmayıb və əhali suya olan tələbatını uzaq məsafələrdən daşıyaraq ödəyir. Xüsusilə yay aylarında kəndlərin su təminatında çətinliklər yaranır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" 9 aprel 2018-ci il tarixli Sərəncamı çərçivəsində eyni zamanda, Bərdə rayonunun Hacılar və Arabaçılar kəndlərində yeni içməli su infrastrukturu yaradılır. Bərdə rayonunun kəndlərində içməli su layihələrinin icrasına 2018-ci ilin iyun ayında başlanılıb. Kənd sakinlərini içməli su ilə təmin etmək üçün su mənbəyi subartezian quyuları seçilib. Layihəyə əsasən, bu kəndlərdə 2 subartezian quyusunun qazılması, 11,3 km uzunluğunda su xətlərinin, əhalinin ümumi istifadəsi üçün 54 ədəd su bulağının tikintisi nəzərdə tutulub.

Hazırda kəndlərdə subartezian quyularının qazılmasına başlanılıb. Arabaçılar kəndində layihədə nəzərdə tutulan 5,4 km uzunluğunda su xətlərinin tikintisi, əhalinin ümumi istifadəsi üçün 27 ədəd su bulağının quraşdırılması işləri yekunlaşıb. Hacılar kəndində isə 5,9 km su xətlərinin və 27 ədəd su bulağının quraşdırılması işləri davam etdirilir.

Bərdə rayonunun Arabaçılar və Hacılar kəndlərində icra olunan layihələr ümumilikdə 2500-dək sakinin içməli su təminatının yaxşılaşdırılmasına imkan yaradacaq. İndiyədək Arabaçılar və Hacılar kəndlərinin sakinləri içməli suya olan tələbatlarını daşıma yolu ilə və ya quyu sularından istifadə etməklə ödəyirdilər. Bu da içməli su təminatında çətinliklərə səbəb olurdu.

Yuxarıda da qeyd etdiyimiz kimi, Prezident İlham Əliyevin "Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" 9 aprel 2018-ci il tarixli Sərəncamına əsasən, respublikanın 13 rayonunun 30 yaşayış məntəqəsində içməli su layihələri icra olunacaq ki, bu layihələrdən də 30 kəndin 45 min nəfər sakini faydalanacaq.

Sözügedən sərəncama uyğun olaraq cəbhəyanı bölgədə yerləşən Tərtər rayonunun 4 kəndində isə yeni içməli su təchizatı infrastrukturu yaradılır. "Azərsu" ASC-nin mətbuat xidmətindən bildirilib ki, layihə 5 minədək sakinin yaşadığı Mamırlı, Poladlı, Təzəkənd və Evoğlu kəndlərini əhatə edir. "Azərsu" ASC tərəfindən bu kəndlərin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə layihə hazırlanıb və cari ilin iyun ayından tikinti-quraşdırma işlərinə başlanılıb.

Layihəyə əsasən, sakinləri içməli su ilə təmin etmək üçün hər kənddə bir subartezian quyusu olmaqla 4 quyunun qazılması nəzərdə tutulub. Eyni zamanda, kəndlərdə 22 kilometr uzunluğunda magistral su xətlərinin, əhalinin ümumi istifadəsi üçün 106 ədəd su bulağının tikintisi nəzərdə tutulub. Qısa müddət ərzində bu kəndlərdə 2 subartezian quyusu qazılıb, 18 kilometr su xətti çəkilib, 90 ədəd bulaq quraşdırılıb. Artıq Mamırlı və Poladlı kəndlərində layihənin icrası yekunlaşıb, digər kəndlərdə yeni infrastrukturun yaradılması işləri cari ilin sentyabr ayının sonunda tam başa çatdırılacaq.

Bu məqamda qeyd edək ki, hazırda respublikamızda əkin sahələrinin suvarma suyu ilə təminatı istiqamətində də davamlı addımlar atılır. Bu sahəni diqqət mərkəzində saxlayan dövlət başçısının imzaladığı müvafiq sərəncamlara əsasən ayrı-ayrı bölgələrdə işlər görülür. Yeri gəlmişkən, Prezident İlham Əliyev avqustun 31-də "Cəlilabad rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb. Sözügedən Sərəncama əsasən, Cəlilabad rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması məqsədilə "İncəçay", "Cəfərxanlı", "Üçtəpə", "Bəylər" və "Alıcı" su anbarlarında zəruri təmir-bərpa işlərinin aparılması üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Cəlilabad Rayon İcra Hakimiyyətinə 4,5 milyon manat ayrılıb.

Ağdaşda isə dövlət əsaslı vəsait qoyuluşu hesabına həyata keçirilən üç layihə 15 min 800 hektar sahənin suvarma suyu ilə təmin olunmasına imkan verəcək. Rayon İcra Hakimiyyətindən bildirilib ki, bu gün Ağdaşda pambıqçılığın inkişafı prioritet vəzifədir və son illər bu istiqamətdə ardıcıl tədbirlər görülür. Pambıq əkinləri üçün əlavə torpaq sahələri ayrılır ki, bu sahələrin su təchizatı artıq ümdə məsələyə çevrilib. Bunun üçün ötən ilin iyul ayından bölgədə üç layihə həyata keçirilir. Layihələrdən biri - Yuxarı Şirvan kanalından Qaradeyin kəndinədək yeraltı borularla çəkilən 15,3 kilometrlik su kəmərində işlər artıq yekunlaşmaq üzrədir. Digər layihələr - Türyançayda su anbarının tikintisi və Kür çayında nasos stansiyasının qurulması işləri davam etdirilir.

Beləliklə, yuxarıda sadalananlar da bir daha onu deməyə əsas verir ki, respublikamızda içməli su və kanalizasiya layihələrinin reallaşdırılması, həmçinin əkin sahələrinin suvarma suyu ilə təminatı istiqamətində işlər davamlı xarakter daşıyır. Və cari ilin geridə qalan ayları ərzində atılan addımlar da deyilənləri təsdiqləyir.

**Nadir AZƏRİ**

# Arıçılıq məhsullarının növbəti respublika sərgi-satış yarmarkasının yeri dəyişdirilib

## *Bal yarmarkası bu il Tofiq Bəhramov adına Respublika stadionunda keçiriləcək*



Kənd Təsərrüfatı Nazirliyi arıçıların çoxsaylı müraciətlərini nəzərə alaraq, arıçılıq məhsullarının növbəti respublika sərgi-satış yarmarkasının keçirilmə məkanını dəyişib.

AZƏRTAC xəbər verir ki, "Arıçılıq haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq, Kənd Təsərrüfatı Nazirliyi bu il oktyabrın 5-dən 28-dək Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski prospekti, 10 ünvanında (Tofiq Bəhramov adına Respublika Stadionunun ərazisi) arıçılıq məhsullarının növbəti respublika sərgi-satış yarmarkasını keçirəcək.

Yarmarkada iştirak etmək istəyən arıçılar öz məhsullarını şəxsiyyət vəsiqəsini təqdim etməklə sentyabrın 15-dən 30-dək yuxarıda qeyd edilən ünvandakı mühafizə olunan anbara təhvil verməlidirlər.

Yalnız qeyd olunan müddətdə anbara təhvil verilmiş və müayinə olunmuş məhsullar yarmarkada satışa çıxarılacaq. Yarmarkaya hazırlıq tədbirlərini səmərəli təşkil etmək məqsədilə arıçılıq məhsullarının anbara qəbulu iqtisadi rayonlar üzrə aşağıdakı tarixlərdə həyata keçiriləcək:

Lənkəran iqtisadi rayonu üzrə - 15-18 sentyabr

Aran iqtisadi rayonu üzrə - 19-21 sentyabr

Gəncə-Qazax iqtisadi rayonu üzrə - 22-24 sentyabr

Şəki-Zaqatala iqtisadi rayonu üzrə - 25-27 sentyabr

Quba-Xaçmaz və Abşeron iqtisadi rayonları üzrə - 28 sentyabr

Dağlıq Şirvan iqtisadi rayonu üzrə - 29 sentyabr

Naxçıvan iqtisadi rayonu üzrə - 30 sentyabr

Kəlbəcər-Laçın və Yuxarı Qarabağ iqtisadi rayonları üzrə - 30 sentyabr.

Eyni zamanda, şəffaflığın təmin edilməsi məqsədilə oktyabrın 4-də yerlərin iqtisadi rayonlar üzrə və fərdi qaydada püşkatması keçiriləcək. Püşkatmada bütün arıçıların iştirakı arzu olunur.

Əlaqə telefonları: 1652 (Kənd Təsərrüfatı Nazirliyinin Çağrı Mərkəzi), (012) 498-16-38, 598-33-32.

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən bildiriblər ki, məkan seçimi zamanı, ilk növbədə, yarmarkaya arıçılıq məhsulları çıxaracaq fermerlər üçün daha yaxşı şəraitin yaradılması, ictimai nəqliyyat və parkinq problemlərinin yaşanmaması, münasib infrastrukturun olması kimi amillər nəzərə alınıb.

# Tərtərli pambıqçılar bu ili də yüksək göstəricilərlə başa vurmağı qarşıya məqsəd qoyublar

## *Tərtərdə pambıq yığımına başlanılıb*



Cəbhə bölgəsində yerləşən Tərtər rayonunda pambıqçılıqla məşğul olan fermerlər və torpaq mülkiyyətçiləri məhsul yığımına başlayıblar. Ötən il hektarın orta məhsuldarlığına görə respublikanın pambıqçılıq rayonları arasında ön sırada dayanan tərtərli pambıqçılar bu ili də yüksək göstəricilərlə başa vurmağı qarşıya məqsəd qoyublar.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu il rayon ərazisində 3300 hektarda pambıq becərilib. "MKT İstehsalat Kommersiya" MMC və "Azərpambıq" MMC ilə bağlanan müqaviləyə əsasən, pambıq istehsalçıları becərmə zamanı lazımi texnika, toxum, gübrə və kimyəvi preparatlarla tam təmin olunublar. Sahələrə göstərilən düzgün aqrotexniki tədbirlər - kultivasiya, seyrəltmə, gübrələmə, suvarma işlərinin, sofkaya, mənənəyə və digər zərərvericilərə qarşı dərmanlama tədbirlərinin vaxtlı-vaxtında həyata keçirilməsi nəticəsində bu il də tarlalarda bol məhsul yetişib.

Rayonda pambıq əl əməyindən istifadə edilməklə yığılmağa başlanıb. İlk olaraq rayonun Qaraağacı kəndi ərazisində yığılan pambıq "MKT İstehsalat Kommersiya" MMC-nin Tərtər filialına təhvil verilib.

"MKT İstehsalat Kommersiya" MMC-nin Tərtər filialının direktoru Feruz Hacıyev tarlalarda məhsulun ötən ildəkindən də çox olduğunu bildirib: **"Bu il 649 fermerlə 1667 hektar sahədə pambıq becərilməsi üçün müqavilə bağlanıb. Becərmə işləri bütün aqrotexniki qaydalara əsasən aparılıb. Tarlaların vəziyyəti qənaətbəxşdir. Barlı kollar yetişib. Ötən il hər hektardan orta hesabla 28,9 sentner məhsul götürmüşdük. Bu il isə məhsuldarlığın 31 sentnerdən çox olacağını gözləyirik. 8 ədəd pambıqyığan kombayn, 16 ədəd traktor, 40 ədəd qoşqu, 3 ədəd yükləyici hazır vəziyyətə gətirilib. Sentyabrın 9-dan tarlalarda defolyasiya işlərinə başlanılıb. Hazırda fermerlər məhsul yığımını əl əməyi vasitəsilə həyata keçirirlər. Ayın 20-dən sonra pambıqyığan kombaynlar da sahələrə çıxarılacaq".**

Pambıq qəbulu məntəqəsinə ilk məhsulu təhvil verən Qaraağacı kənd sakini Sabir Qədirov ötən il olduğu kimi bu il də yüksək məhsuldarlığa nail olduğunu bildirib: **"Keçən il hər hektardan orta hesabla 45 sentner məhsul vermişdim. Bu il də 1,3 hektarda pambıq becərib, düzgün aqrotexniki xidmət sayəsində bol məhsul yetişdirmişik. Birinci üz yığımından 3470 kiloqram pambıq yığıb məntəqəyə təhvil verdik. Pambıq yığımı mövsümünün sonunadək hər hektarın məhsuldarlığının 50 sentnerə çatacağını gözləyirik. İnanıram ki, tarlalardan 130 tondan artıq pambıq götürəcəyik".**

Qeyd edək ki, 2017-ci ildə 3123 hektarda pambıq becərən Tərtər pambıqçıları tarlalardan 8419 ton məhsul tədarük ediblər. Bu, orta məhsuldarlığa görə ötən il respublika üzrə ən yüksək göstərici olub.

# Azercell-dən GəncOL8 tarif paketinə qoşulan abunəçilərinə HƏDİYYƏ İNTERNET




Endirimli tarif paketləri, unikal xidmətləri və sərfəli kampaniyalarla yay ayları ərzində hər kəsi sevindirən Azərbaycan rabitə bazarının lider mobil operatoru Azercell Telekom dərs ilinin başlanması ilə əlaqədar abunəçilərinə yeniliklər vəd edir. 12.09.18 - 15.12.18 tarixlərində keçiriləcək yeni kampaniya çərçivəsində GəncOL8 tarifinə qoşulan hər bir kəs Azercell-dən AYLIQ 1GB HƏDİYYƏ əldə edəcək. Abunəçilər bu pulsuz internet paketindən ayda 1 dəfə olmaqla növbəti 3 ayda yararlana biləcəklər. GəncOL8 tarif paketinə qoşulmaq üçün SimSim abunəçiləri G8 yazıb 7575-ə göndərməlidirlər. Beləliklə, ayda cəmi 8 AZN ödəyib GəncOL8 tarif paketinə qoşulmaqla abunəçilər 4GB əvəzinə 5GB internet, üstəlik, GəncOL abunəçiləri arasında 400 pulsuz dəqiqə, şəbəkədaxili 400 pulsuz sms əldə edəcək.

Gənc OL8 tarifinin üstünlükləri bununla bitmir. Bu tarifə qoşulmaqla Azercell müştəriləri sərfəli tarifdən yararlanmaqla yanaşı, müxtəlif endirimlər və kampaniyalardan da faydalana bilər. Hal-hazırda, GəncOL paketi ilə abunəçilər 200-dən artıq məkanda çox sərfəli endirimlərdən yararlanırlar. Hər gün yenilənən endirim siyahısı ilə abunəçilər www.gencol.az portalına daxil olmaqla tanış ola bilərlər.

## İTMİŞDİR

Abbasov Pərviz Arif oğluna məxsus Bakı şəhəri, Sabunçu rayonu, Nardaran qəsəbəsi, 1156 saylı bağ evinin çıxarışı itdiyi üçün etibarsız sayılır.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074

"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC",
"Azadinform", "SİA"
Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.

Buraxılışa məsul:
Zahid İLHAMOĞLU